**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜSTAN AZƏRBAYCANLILARININ MƏİŞƏT VƏ MƏDƏNİYYƏTİ (TARİXİ-ETNOQRAFİK TƏDQİQAT)

| | |
|---|---|
| İxtisas: | 5102.01- Etnoqrafiya və etnologiya |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Əsəd Tanrıverdi oğlu Əliyev** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AFTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, tarix elmlər doktoru, professor
**Teymur Əmiraslan oğlu Bünyadov**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Hacıfəxrəddin Yəhya oğlu Səfərli**

tarix elmləri doktoru, professor
**Lavrenti Mamiyeviç Caniaşvili**

tarix elmləri doktoru, professor
**Jambıl Omaroviç Artıkbayev**

tarix elmləri doktoru, dosent
**Solmaz Səttar qızı Məhərrəmova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra müxtəlif elmlərin, eləcə də etnoqrafiya elminin qarşısında yeni dövrün tələblərinə uyğun tədqiqat istiqamətləri müəyyənləşdirildi. Yeni tədqiqat istiqamətlərindən biri ölkəmizdən kənarda kompakt halda yaşayan soydaşlarımızın, o cümlədən də Gürcüstan azərbaycanlılarının məişət və mədəniyyətinin azərbaycançılıq ideologiyası zəminində öyrənilməsidir. Azərbaycançılıq ideologiyası təkcə Azərbaycanda yaşayan azərbaycanlıların deyil, dünyanın bütün ərazilərində məskunlaşmış azərbaycanlıların milli-mənəvi maraqlarına xidmət edir. Mövzunu aktuallaşdıran ən zəruru amillərdən biri məhz milli-mənəvi sərvətlərimizə azərbaycançılıq ideologiyası baxımından dövlət səviyyəsində dəyər verilməsidir. Ulu Öndər Heydər Əliyev çoxsaylı çıxış və nitqlərində bu amili dönə-dönə dilə gətirmiş, milli-mənəvi dəyərlərimizin toplanması, qorunması və öyrənilməsini tövsiyə etmişdir: "*Milli ideologiyamızın əsas hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz*" [1].

Etnologiya elmində etnosun mədəni, sosial, iqtisadi, bəzən siyasi tarixini, etnogenezini, bəşər mədəniyyətində tutduğu mövqeyini müəyyənləşdirməkdən ötrü onun təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, ailə və nikah formaları, bir sözlə, məişət və mədəniyyəti öyrənilir. *Xalqın tarixi təkcə yazılı mənbələrdə deyil, eləcə də onun yeməyində, geyimində, yaşayış evlərində, habelə qəbir abidələrində və qədim məskənlərində, əfsanə və epik dastanlarında, rəvayətlərində, etnos tərəfindən yaradılıb, onu başqalarından fərqləndirən mədəniyyətin bütün*

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: Çoxcildlik əsərləri. / H.Əliyev. − Bakı: Azərnəşr, − c. 18. – 2016. − 552 s.

*sferalarında qorunur*[2]. Həmin prizmadan yanaşdıqda, Gürcüstanda yaşayan soydaşlarımızın məişət və mədəniyyətinin tarixi-etnoqrafik aspektdə araşdırılmasının aktuallığı inkaredilməzdir.

Azərbaycan xalqının məişət və mədəniyyəti kifayət qədər öyrənilsə də, tədqiqatlar əsasən, respublikamızın etnoqrafik bölgələrini əhatə edir. Dünyada yaşayan azərbaycanlılarla bağlı elmi araşdırmalar isə sistemli şəkildə aparılmamış və əsasən müasir dövr etnoqrafiyasına aiddir. Təqdim edilən dissertasiya işi tarixi-etnoqrafik aspektdən yazılaraq bu boşluğun doldurulmasına elmi əhəmiyyət daşıyır. Azərbaycan xalqının etnologiyasının bütöv halda öyrənilməsi mövzunu daha da aktuallaşdırır.

Qloballaşan dünyada gedən proseslərin xalq məişətinə fəal təsiri, müxtəlif səbəblər üzündən əhalinin miqrasiyası, mənəvi irsimizin zəngin xəzinəsini daşıyan yaşlı nəslin dünyasını dəyişməsi və bunun nəticəsində milli-mənəvi dəyərlərimizin lokal xüsusiyyətlərinin aradan çıxma qorxusu mövzunun öyrənilməsini daha zəruri edir.

Azərbaycan etnoqrafiya elmində bu vaxtadək aparılan tarixi-etnoqrafik tədqiqatlarda Gürcüstan azərbaycanlılarının məişət və mədəniyyəti ilə bağlı məsələlərə kompleks şəkildə toxunulmamışdır. Gürcüstan azərbaycanlıları yaşayan bölgənin orta əsrlər dövrünü K.Məmmədli[3], XIX-XX əsrin əvvəlləri tarixini M.Abbasova[4] yazmışdır. Müxtəlif tarixi hadisələrlə bağlı xatırlatmalar Y.Nəsiblinin yaradıcılığında əksini tapmaqdadır[5]. Ədəbiyyatşünaslıq məsələləri, folklor, mətbuat və maarifçilik

---

[2] Итс, Р.Ф. Введение в этнографию: Учебное пособие / Р.Ф.Итс. − Л.: Изд-во Ленинградского Университета, − 1991. − 168 с.

[3] Borçalı abidələri. / Layihənin rəhbəri E.F.Məmmədov, elmi redaktoru K.H.Məmmədov. − Tbilisi, − 2013. − 127 s.; Məmmədli, K.H. Borçalı Çar Rusiyasının işğalı dövründə // "Qarapapaqlar". Aylıq elmi-kütləvi dərgi, fevral 2009, №2 (20), − s.9-11.

[4] Аббасова, М.А. История Борчалинского Махала / М.А.Аббасова. − Баку: Сабах, − 2006. − 460 с.

[5] Насибли, Ю.М. Место Северо-Западного региона Азербайджанской республики в истории и в современной грузинской историографии // Azərbaycan arxeologiyası və etnoqrafiyası. – Bakı, − 2004. − №2. − s. 167-173.

hərəkatı, hərb tarixi, bölgənin toponimləri və etnoqrafiyasının bu və ya digər məsələləri elmi-kütləvi, publisistik formada V.Hacılar [6], Ş.Məmmədli[7], V.Ömərli[8], M.Sarvan[9], Ş.Şamıoğlu[10], B.Budaqov, Q.Qeybullayev[11], M.Mədədoğlu[12], F.Valehoğlu[13], M.Məmmədoğlu[14], T.İsabalı qızı[15], M.F.Kırzıoğlu[16] və b. tərəfindən araşdırılmışdır. Adı çəkilən müəlliflərin tədqiqat işləri əsasən etnoqrafik mahiyyət kəsb etməsə də, işin yazılmasında həmin əsərlərə də müraciət olunmuşdur.

Yuxarıda adlarını sadaladığımız müəlliflərlə yanaşı, dissertasiya işinin hasilə gətirilməsində Azərbaycan etnoqraflarının – Q.T.Qaraqaşlı, Ə.K.Ələkbərov, M.N.Nəsirli,

---

[6] Hacılar, V. Azərbaycan folklor ənənələri (Gürcüstandakı türkdilli folklor örnəkləri əsasında) / V.Hacılar. − Tbilisi: Samşoblo, − 1992. − 120 s.; Hacılar, V. "Kitabi-Dədə Qorqud" və Borçalı-Qarapapaq folkloru // "Gürcüstan" qəzeti. Tbilisi,- 2000, 6 aprel-s.7.

[7] Məmmədli, Ş.B. Borçalı ədəbi mühiti: qaynaqları, təşəkkülü, inkişafı (1920-ci ilə qədər) / Ş.B.Məmmədli. − Bakı: Elm, − 2000. − 224 s.; Məmmədli, Ş.B. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi / Ş.B.Məmmədli. − Bakı: Azərnəşr, − 1991. − 66 s.: Məmmədli, Ş.B. Alın yazımız / Ş.B.Məmmədli. − Tbilisi: Dayaq, − 1997. − 104 s.

[8] Ömərli, V.A. Qarayazı: Gürcüstanda türklər [2 hissədə] / V.A.Ömərov. − Bakı: Çaşıoğlu, − 2001. 1 hissə. − 760 s.; Ömərli, V.A. Qarayazı / V.A.Ömərli. − Bakı: Ocaq, − 2007. 2 hissə. −348 s.

[9] Sarvan, M. Ulu Borçalı / M.Sarvan. − Bakı: Elm, − 1998. − 370 s.

[10] Şamıoğlu, Ş. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər) / Ş.Şamıoğlu. − Bakı: Azərbaycan, − 1997. − 200 s. 206.

[11] Budaqov, B.A. Qeybullayev Q.Ə. Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti / B.A.Budaqov, Q.Ə.Qeybullayev. − Bakı: Nurlan, −2004. − 320 s.

[12] Mədədoğlu, M. Çağdaş Borçalı ədəbi məktəbi / M.Mədədoğlu. − Bakı: Azərbaycan, − 1994. − 224 s.

[13] Valehoğlu, F. Qarapapaqlar və onların XIX əsr hərb tarixi / F.Valehoğlu. − Bakı: Səda, − 2005. − 248 s.; Valehoğlu, F. Qarapapaq elləri XIX əsr qaynaqlarında // "Qarapapaqlar" dərgisi. – Tbilisi: Kolori, − 2005, №3, − s. 15-20.

[14] Məmmədoğlu, M. Qədim Tiflis / M.Məmmədoğlu. − Bakı: Elm və təhsil, − 2009. − 242 s.

[15] İsabalı qızı, T. Borçalı aşıq mühiti / T.İsabalı qızı. − Bakı: Elm, − 1999. − 168 s.

[16] Kırzıoğlu, M.F. Karapapaklar. Borçalı-Kazak uruğunun Kür-Aras boylarındakı 1800 yılına bir bakış / M.F.Kırzıoğlu. − Erzurum: Atatürk Üniversitesi, − 1972. − 36 s.

T.Ə.Bünyadov, Q.C.Cavadov, A.N.Mustafayev, T.M.Kərimov, H.A.Quliyev, Ş.A.Quliyev, Q.Ə.Qeybullayev, H.Q.Qədirzadə, Q.Ə.Rəcəbli, Ə.Ə.İzmayılova, H.A.Həvilov, F.İ.Vəliyev, T.A.Babayev, S.S.Məhərrəmova, Ş.T.Bünyadova, N.M.Quliyeva, G.Yoloğlu, İ.G.Məmmədova, X.D.Xəlilov, M.Q.Allahmanlı, B.F.Əliyevin, T.S.Şahbazov, S.T.Səmədova, H.Zahidova, T.N.Quluzadə, B.T.Əmənova və b. əsərlərindən, habelə, üçcildlik "Azərbaycan etnoqrafiyası"ndan istifadə edilmişdir.

Problemin araşdırılmasında gürcü və rus tədqiqatçılarının da xidmətləri vardır. Görkəmli gürcü müəllifləri A.Xaxanaşvilinin, E.Takaişvilinin, L.Musxelişvilinin, V.Çaoşvilinin, T.İvelaşvilinin, T.Çikovaninin, M.Kantariyanın, İ.Pantyuxovun və b. məqalələrində problemlə bağlı bu və ya digər məsələlərə toxunulur. Məşhur gürcü jurnalisti, yazıçısı İ.Tçavtçavadzenin "Borçalı qəzası" sərlövhəli yazısında Borçalı əhalisinin bəzi geyimlərinə və məişət məsələlərinə diqqət çəkilir.

İ.Qutqaşınlının "Səfərnamə"si, akademik N.Marrın, rus hərbi icmalçısı Filipovun, Lyaxovun, S.Borçaloelinin (Baydaşvilinin) və başqalarının məqalələri də Borçalını öyrənmək baxımından maraqlıdır .

Gürcüstan azərbaycanlılarının əsrlər boyu formalaşan maddi mədəniyyət nümunələri, xüsusilə, geyim dəstləri barədə yazılı bilgilər kasaddır. Bu haqda rəssam-litoqraf K.P.Beqqrovun XIX əsrin əvvəllərində çəkdiyi şəkillərdən [17], D. Ermakovun, A.D.Kornouxovanın, M.Tilkenin rəsm əsərlərindən və A.Q.Trofimovanın akad. S.N.Canaşia adına Gürcüstan Dövlət Muzeyində saxlanan Borçalı qadın libasları ilə bağlı yazısından [18] başqa məlumata rast gəlinmir. Digər müəllif N.Q.Volkova isə

---

[17] Qafqaz xalqlarının milli geyimləri rəssam-litoqraf G.P.Beqqrovun yaradıcılığında (kitabın tərtibçisi, mətnin və şərhlərin müəllifi: E.Kərimov). − Bakı: Azərbaycan, − 2014. − 88 s.

[18] Трофимова, А.Г. Обзор коллекций одежды народов Азербайджана государственнего музея Грузии им. Акад. С.Н.Джанашиа // Хозяйство и материальная культура народов Кавказа в XIX-XX вв./ Трофимова, А.Г.// − М.: Наука, −1971. − вып. 1. − с. 171-179.

qadın geyimlərindən bir neçəsinin, məsələn, arxalıq, don, məzər, dingə və kəlağayının adını çəkməklə kifayətlənir[19].

Mövzunun öyrənilməsində XIX əsr rusdilli mənbələri böyük əhəmiyyətə malikdir. Əhalinin təsərrüfat məişəti barədə Arqutinskiy-Dolqorukovun [20], E.D.İeritsovun [21], X.A.Vermişevanın [22], V.N.Geyevskinin [23], P.Vozianovun həmçinin, “Qafqaz kənd təsərrüfatı” qəzetinin müxtəlif saylarında verilən məlumatlar isə pərakəndə halda olub, epizodik xarakter daşısa da elmi dəyəri ilə diqqət çəkir.

Gürcüstan azərbaycanlılarının yaşayış məskənləri və evləri Ə.M.Nəbiyev [24], ənənəvi və müasir maddi mədəniyyəti C.A.Novruzov [25] tərəfindən araşdırılmışdır. Bu tədqiqatlar məsələnin həllinə yönəlmiş cəhd kimi təqdirəlayiq və elmi dəyərə malik olsa da, soydaşlarımız yaşayan bəzi bölgələrin timsalında problemə daha ətraflı, ümumiləşdirilmiş şəkildə yanaşmaq lazım

---

[19] Волкова, Н.Г. Азербайджанцы Грузии (по материалам полевых исследовании 1973-1976 гг.) // Полевые исследования Института Этнографии 1976 / Н.Г.Волкова. − М.: Наука, − 1978. − с. 109-119.

[20] Аргутинский−Долгоруков, А.М., Бочкарева В.П. и Даниловича Р.И. Район Тифлисско-Карсско-Эриванской железной дороги в экономическом и коммерческом отношениях / Аргутинский−Долгоруков, А.М., Бочкарева В.П. и Даниловича Р.И. // МИЭБГКЗК. − Тифлис: Издание Закавказской Железной Дороги, − 1897. − 244 с.

[21] Ерицов, А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда / Ерицов, А.Д.// МИЭБГКЗК. − Тифлис, − 1887. т. 7. − с. 367-534.

[22] Вермишева, Х.А. Земледелия у государственных крестьян Закавказского края / Вермишева, Х.А. // СМИЭБКЗК. − Типогр. А.А. Михельсона, − 1888. т. 4, ч. 1. − с. 1-560.

[23] Геевский, В.Н. Нижне−Караязские казенные зимние пастбища Казахского уезда Елисаветпольской губернии / Геевский, В.Н. // МУКЛЗПИСК. − Тифлис: Типог. К.П.Козловского, − 1895. − т.3, ч. 1. − с. 85-206.

[24] Набиев, А.М. Поселения и жилища азербайджанцев, проживавших в Грузии в конце XIX-нач. XX вв. (по материалам Квемо-Картилийской историко-этнографической области): / Автореф. дис. на соис. уч. степ. к.и.н. / Набиев, А.М. // − Тбилиси, − 1981. − 34 с.

[25] Новрузов, Дж.А. Традиционная и современная материальная культура азербайджанцев Грузии (конец XIX-80-е гг. XX вв.) / Дж.А.Новрузов.// − Баку: Элм, − 2007. − 158

gəlir. Digər tərəfdən isə, C.Novruzovun tədqiqatı bizim öyrəndiyimiz dövrlə üst-üstə düşmür, əsasən, daha çox müasir dövr etnoqrafiyasını əks etdirir.

Gürcüstanın azərbaycanlı-türk əhalisinin ailə və ailə məişəti də tam öyrənilməmişdir. Belə ki, etnoqraf alim Ə.K.Əhmədov yalnız Başkeçiddə (Dmanisdə) yaşayan azərbaycanlıların ailə məişətini tədqiq etmişdir [26].

Beləliklə, yuxarıda adlarını sadaladığımız müəlliflərin əsərləri öyrəndiyimiz məsələlərin bu və ya digər tərəfdən həllində əhəmiyyətli olsa da, bu araşdırmalarda XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının məişət və mədəniyyəti kompleks şəkildə tarixi-etnoqrafik tədqiqata cəlb edilməmişdir. Təqdim etdiyimiz dissertasiya işi qoyulan məsələnin həllinə yönəlmiş ilk təşəbbüsdür.

**Tədqiqatin obyekti və predmeti.** Tədqiqat işinin obyekti Borçalı (Marneul), Qarayazı (Qardaban), Bolus (Bolnis), Başkeçid (Dmanis), Ağbulaq (Tetricğaro), Qaraçöp (Saqareco), Laqodex, Telav, Kaspi, Msxeta və s. rayonlarında, həmçinin, Tiflis və Rustavi şəhərlərində yaşayan azərbaycanlı əhalinin yaratmış olduğu maddi-mədəni irsidir. Təsərrüfat həyatı, sənətkarlıq, maddi və mənəvi mədəniyyət, ailə və nikah formaları, ictimai məişət məsələləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının məişət və mədəniyyətini kompleks şəkildə tarixi-etnoqrafik aspektdə öyrənməkdən ibarətdir. Bu xüsusda dissertasiya işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- Tədqiq olunan dövrdə Gürcüstan azərbaycanlıları yaşayan bölgənin təbii-coğrafi şəraitini, tarixi-etnoqrafik xarakteristikasını,

[26] Ахмедов, А.К. Семья и семейный быт азербайджанцев (историко-этнографическое исследование по материалам Дманисского района Грузинской ССР): / Автореф. дис. на сос. уч. канд. истор. наук. / Ахмедов, А.К.// – Баку, 1970. – 23 с.

əhalinin etnik tərkibini və ictimai-siyasi amillərin mövcud duruma təsirini göstərmək;

- əhalinin təsərrüfat məişətini (əkinçilik, bağçılıq, bostançılıq, maldarlıq, sənətkarlıq) tədqiq etmək;
- yaşayış məskənləri, evlər və təsərrüfat tikililərinin tip, forma və plan quruluşunun təsnifat və təsvirini, tarixi inkişaf mərhələsi və etnoqrafik səciyyəsini vermək;
- xalq geyim və bəzəklərinin spesifik-lokal xüsusiyyətlərini, digər xalqlarla oxşar və fərqli cəhətlərini üzə çıxarmaq;
- ənənəvi yemək və içkilərin təsnifatını vermək, məhəlli xüsusiyyətlərinin, həmçinin, qonşu xalqların mətbəxi ilə qarşılıqlı təsirinin elmi izahını vermək;
- xalq nəqliyyatı vasitələrinin təsərrüfat və məişətdəki rolunu müəyyənləşdirmək, ənənəvi rabitə sistemini öyrənmək;
- ailə məişəti (nikah, nişan, toy, uşaqların tərbiyəsi, dəfn) ilə bağlı məsələlərin etnoqrafik səciyyəsinin, bu xüsusda mövcud olan adət-ənənələrin, ağsaqqallıq və ağbirçəklik sosial institutunun etnoqrafik şərhini vermək;
- Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti (xalq yaradıcılığı, təbabət, andiçmə, yuxu və yuxuyozma, deyimlər-müdrik kəlamlar, sınamalar və s.) və ictimai məişətini (qonşuluq münasibətləri, qarşılıqlı yardım formaları, qonaqpərvərlik və s.) öyrənmək və s.

**Tədqiqatın metodları.** Dissertasiya işi azərbaycançılıq ideologiyası əsasında qələmə alınmışdır. Tədqiqat aparılarkən kompleks etnoloji metodlar, çöl-etnoqrafik tədqiqatları, şifahi sorğularda əldə olunan məlumatların təhlili, mənbələrə elmi-tənqidi münasibət, xronoloji ardıcıllıq prinsipi, tarixi-müqayisəli metod və s. əsas götürülmüşdür. Çöl tədqiqatları müşahidə, sorğu və yerli əhalinin işində iştirak etməklə aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Gürcüstan azərbaycanlıları qədim dövrdən burada yaşamış türk tayfalarının törəmələri, birbaşa varisləridir;
- bölgədə təsərrüfatın aparıcı sahələri əkinçilik (taxılçılıq, bostançılıq, üzümçülük və s.) və maldarlıq (əsasən qoyunçuluq) olmuş, əhalinin güzəranı inkişafına təkan vermişdir;

- Gürcüstan azərbaycanlılarının yerləşdikləri bölgənin zəngin xammal ehtiyatı, xalqın dünya görüşü, qurub-yaratma bacarığı, əsrlər boyu qazandığı empirik bilikləri burada müxtəlif sənət sahələrinin yaranmasına və inkişafına zəmin yaratmışdır;
- XIX-XX əsrin əvvəllərində araşdırılan ərazidəki kəndlər qohumluq prinsipinə uyğun olaraq patronomik qruplardan təşkil edilmiş, şəhər məhəllələrində isə qohumluq-qonşuluq münasibətləri əsas sayılırdı;
- təbii-coğrafi şəraitdən, təsərrüfat məişətinin xarakterindən, tikinti materiallarının növündən, ailə formalarından və xarici təsirlərdən asılı olaraq əhalinin fərdi yaşayış evlərinin müxtəlif tipləri vardı;
- materialına, formasına, rəng çalarına, tikilmə texnikasına görə qadın və kişi geyimləri yerli xüsusiyyət kəsb etməklə bərabər, həm də ümumazərbaycan, türk və Qafqaz səciyyəsi daşımışdır;
- müxtəlif təsərrüfat sahələrinin mövcudluğu, ərazidə zəngin qida ehtiyatı, insanların dünyagörüşü, bacarıq və zövqü mətbəx mədəniyyətinin rəngarəng, çoxçeşidli olmasını şərtləndirmişdir;
- ərazinin relyef quruluşu, əhalinin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsi burada müxtəlif nəqliyyat vasitələrinin yaranmasına və tətbiqinə təkan vermişdir;
- ailə məişətinin mühüm tərəfini təşkil edən nikah formaları, qaydaları, nikahagirmə üsulları, toy və yas mərasimləri, uşaqların tərbiyə metodları, mövcud adət-ənənələr, inam-etiqadlar umumazərbaycan səciyyəli idi;
- qonaqpərvərlik adəti ümumqafqaz səciyyəsi daşımışdır;
- bölgədə xalq təbabətindən geniş istifadə olunmuş və bu sahə zəngin empirik biliklər sayəsində daha da inkişaf etmişdir;
- ağsaqqallıq və ağbirçəklik sosial institutunun xüsusi rolu vardı;
- bölgədə xalq ruhunda yazıb-yaradan, bədahətən şeirlər söyləyən xeyli sayda sinədəftərlər yaşamışdır;
- yuxu yozmaları, deyimlər-müdrik kəlamlar, el sınaqları xalqın psixoloji durum və mənəvi dünyasında xüsusi yer tutmuşdur.

**Tədqiqatin elmi yeniliyi.** Dissertasiyanın əsas elmi yeniliyi Gürcüstan azərbaycanlılarının XIX-XX əsrin əvvəllərində məişət və mədəniyyətinin ilk dəfə komleks şəkildə öyrənilməsidir.

1. Gürcüstan azərbaycanlılarının yaşadıqları ərazidə köklü sakinlər olması davamlı təsərrüfat məişəti, köklü maddi və mənəvi mədəniyyət nümunələrinin varlığı, zəngin ailə məişəti ənənələri əsasında sübuta yetirilmişdir.

2. Əhalinin təsərrüfat həyatında əkinçiliklə yanaşı, maldarlığın, xüsusən də qoyunçuluğun mühüm əhəmiyyət kəsb etməsi və yerli xüsusiyyətləri tədqiq olunmuşdur.

3. Xalq yaşayış məskənləri və evlərinin forma və tiplərinin məhəlli xüsusiyyətləri, onların Azərbaycan və gürcü evləri ilə eyni, bəzən fərqli cəhətləri aşkara çıxarılmışdır.

4. Geyim və bəzəklərin təsnifatı, təyinatı öyrənilmiş, xalqın sosial-mənəvi həyatındakı əhəmiyyəti şərh edilmişdir.

5. Yemək və içkilərin özünəxas tərəflərinin olması, Azərbaycan və gürcü mətbəxinin bir-birinə qarşılıqlı təsiri müəyyənləşdirilmişdir.

6. Nəqliyyat vasitələri və yolların əhalinin iqtisadi həyatındakı rolu araşdırılmışdır.

7. Ailə məişəti ilə bağlı məsələlər, ağsaqqal və ağbirçəyə olan hörmət, habelə, valideyn və övlad münasibətləri müqayisəli şəkildə tədqiq edilmişdir.

8. Etnoqrafik sorğular nəticəsində xalq yaradıcılığı ilə bağlı yeni materiallar toplanaraq elmi dövriyyəyə təqdim olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələri etnoloqlar, tarixçilər, antropoloqlar, sosioloqlar, ədəbiyyatşünaslar, folklorşünaslar üçün gərəklidir. Dissertasiyanın materialları Gürcüstan, o cümlədən də dünya azərbaycanlılarının əhatə olunduğu çoxcildlik "Azərbaycan etnologiyası", "Azərbaycan tarixi" əsərlərinin hazırlanmasında, Qafqaz və türk xalqlarının etnologiyası və tarixinin yazılmasında, ali məktəb dərsliklərinin tərtibində tətbiq edilə bilər.

Dissertasiyada öyrənilən məsələlər müasir dövrdə gənc nəslin milli zəmində və vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir vasitə kimi faydalıdır.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmunu müəllifin iki monoqrafiyasında, Azərbaycanda, eləcə də xaricdə dərc olunan elmi məqalə və tezislərində əksini tapmışdır. Bundan başqa, müəllif dissertasiyanın məzmunu haqqında beynəlxalq elmi konfranslarda, Azərbaycanda arxeoloji və etnoqrafik axtarışların yekunlarına həsr olunmuş illik elmi sessiyalarda məruzələrlə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi "Giriş", beş fəsil, "Nəticə", "İstifadə olunmuş ədəbiyyat", "Qəbul edilmiş ixtisarlar", "Məlumatçıların siyahısı" və "İillüstrativ materiallar"dan ibarətdir. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olmaqla) 439 831 işarədən ibarətdir. "Giriş": işarə sayı – 13 719; I fəsil: işarə sayı – 29 331, II fəsil: işarə sayı – 81 493; III fəsil: işarə sayı -148 003; IV fəsil: işarə sayı - 60 999; V fəsil: işarə sayı – 90 151, "Nəticə": işarə sayı – 16 135 təşkil edir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**"ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqat işinin məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, dissertasiya işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı və dissertasiya işinin ümumi həcmi barədə məlumat verilir.

Dissertasiyanın birinci fəsli "**Bölgənin tarixi-etnoqrafik səciyyəsi**" adlanır. Burada Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərin təbii-coğrafi şəraiti, iqlimi, torpaq örtüyü, səfalı yaylaqları, bulaqları, bol sulu çayları, zəngin meşələri, yamyaşıl

çəmənləri, otlaqları barədə məlumat verilir. Qeyd olunur ki, XV əsrin əvvəlindən başlayaraq indiki Gürcüstan Respublikasının şərq və cənub şərq hissəsi Azərbaycan dövlətinin-Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərin tərkibində olsa da, sonralar vəziyyət dəyişmişdir. Belə bir hala XVIII əsrin birinci yarısında da tuş gəlinmişdir. Göstərilən əsrin əvvəllərində Borçalı mahalı Gəncə xanlığına daxil idi. Lakin II Uğurlu xan Ziyadoğlu 1736-cı ildə Muğanda Nadir xanın şah seçilməsinə etiraz etmiş və bunun müqabilində o, Qazax, Borçalı, Şəmşəddil bölgələrini Ziyadoğlulardan alıb Gürcüstan əmirlərinin hakimiyyəti altına (Kartli çarı Teymuraza) vermişdir.

XVIII əsrin 40-cı illərinin sonu və 50-ci illərində Şəki xanlığının güclənməsi, Çələbi xanın hakimiyyətinin möhkəmlənməsi Qarabağ xanı Pənah xanı, Qaradağ xanı Kazım xanı, Naxçıvan xanı Heydərqulu xanı və Gəncə xanı Şahverdi xanı narahat etdiyindən, onlar birləşib gürcü çarları Teymuraz və II İrakli ilə Şəki xanlığına qarşı ittifaqa girirlər. Lakin Gəncəni ələ keçirmək istəyən II İrakli xəyanət yolunu tutur. Belə ki, o, 1751-ci ildə müttəfiqlərini Şəmkir yaxınlığındakı düşərgəsinə dəvət edərək onları "tələyə" salır. Bundan soraq tutan Şəki xanı Hacı Çələbi gürcü qüvvələrinin üstünə hücum çəkərək onları məğlub edir və xanları əsirlikdən qurtarır. O, Qazax, Borçalı və Şəmşəddil bölgələrində gürcü ağalığına son qoyub, oğlu Ağakişi bəyi bu yerlərə hakim təyin edir. Lakin 1755-ci ildə Hacı Çələbi vəfat edir və Şəki xanlığı zəifləməyə başlayır. Bundan sonra Qazax, Borçalı və Şəmşəddil bölgələri yenidən gürcü ağalığının təsiri altında olur.

1783-cü ilin 24 iyulunda Rusiya ilə Kartli-Qaxet çarlığı arasında müqavilə imzalandı və bu müqaviləyə əsasən Qazax, Şəmşəddil və Borçalı sultanlıqları sözügedən çarlığın tərkibində Rusiya İmperiyasının himayəsi altına düşdü. 1801-ci ildə isə rus imperatoru Kartli-Qaxet çarlığının ləğv olunub Rusiyaya birləşdirilməsinə dair manifest imzaladı.

Soydaşlarımız rus hakimiyyətini qəbul etməyərək, onların hökmranlığına sərt münasibət göstərmişlər. Bunu erməni kökənli rus generalı İ.Lazarevin yuxarılara ünvanladığı raport da aydın göstərir: "Qazaxlılar, borçalılar və ümumiyyətlə tatarlar bizə heç

cür sadiq deyillər, kiçik bir dəyişiklik olsa bizə qarşı çıxacaqlar, onlara Gəncə xanı da qoşulacaq”. Raportdan da göründüyü kimi, Cənubi Qafqaza yerləşdirildikləri vaxtlardan erməni xisləti öz çirkin simasını göstərmiş və bu gün də göstərməkdədir.

Qədim tarixə, ulu kökə malik Borçalı türklərin, azərbaycanlıların yaşadığı yurdlardan olmuşdur. Bu amil çoxlarında qorxu və qısqanclıq yaradırdı. Elə o səbəblərdən biri idi ki, hələ 1803-cü ildə P.Sisianov azərbaycanlılar yaşayan bölgələrə, o cümlədən Tiflis şəhərinə 11 min erməni yerləşdirmişdi. 1828-1829-cu illərdə Cavaxeti bölgəsi Rusiyanın hökmranlığı altına düşərkən, buradakı müsəlmanların əksəriyyəti onların bu bölgədə söz, hökm yiyəsi olmaqlarını qəbul etməyərək öz doğma yurdlarını qoyub Türkiyəyə sığınmışlar. Bunun əvəzində isə, Türkiyədən Cavaxetiyə 30 min erməni köçürülmüşdü.

Borçalı yurdu Cənubi Qafqazın Rusiya tərəfindən işğalından sonra əlahiddə “tatar distansiyası” statusu alaraq Tiflis quberniyasının tərkibində qəzaya çevrildi. Həmin dövrdə qəzanın sərhədi rus müəllifi A.D.Eritsov tərəfindən belə təsvir edilirdi: Tərkibinə Borçalı düzənliyi, Loru və Trialeti dağları da daxil olan qəza, Tiflisin cənub-şərqində 40 dərəcə 40 saniyə şimal və 62 dərəcə 22 saniyə cənub uzunluqları arasında yerləşir. Ən uca zirvəsi dəniz səviyyəsindən 9918 verst hündür olan Hələb dağıdır. Qəza, həmçinin, Yelizavetpol quberniyasının Qazax, İrəvan quberniyasının Aleksandropol qəzası ilə həmsərhəddir. Onun cənub sərhəddi Qoşadağ silsiləsindən və Pəmbək vadisindən keçir. Borçalının ərazisi şimal-qərb istiqamətində sağda Çubuqlu, daha sonra isə Ağlağan adlanan Bozabdal dağ silsiləsinə qədər uzanır. Sözügedən bölgənin qərbdə Qaraxaçdan keçən sərhəddi Leyli dağına çatır. Borçalını burada Axalkələk qəzasından Yemlikli (Şiştəpə), Əyriqar, Dəvəqıran, Qoyundağ, Simsar, Şahnabad (Şahnababel), Qoridən Cəm-Cəm, Ərcivan dağları, Tiflisdən isə Məngilisdəki Sarıdağ ayırır. Burada Borçalının sərhəddi Yağlıca düzü daxil olmaqla Qırmızı Körpüyə çatır. Borçalının ümumi sərhəddinin uzunluğu 480 verstdir ki, onun da 100 versti Aleksandropol, 80 versti Axalkələk, 55 versti Qori, 145 versti Tiflis, 100 versti isə Qazax qəzası ilə sərhəddin payına düşür.

A.D.Eritsovun yazdığına əsasən, Axalsıx, Axalkələk, Telav qəzalarından iki dəfə böyük olan Borçalı, sahəsinə görə Tiflis, Tianet və Duşet qəzalarını da geridə qoyurdu. Borçalı ərazisi o qədər böyük idi ki, nə Kutais, nə İrəvan, nə Yelizavetpol, nə də Bakı quberniyaları onunla müqayisəyə gəlməzdi.

XIX əsrin axırlarında Borçalının ərazisi 111,96 mil, yaxud 5,417 kv verst, yəni 564,472 desyatin göstərilir və qeyd edilir ki, Tiflis quberniyasında ən geniş sahə Borçalı qəzasına məxsusdur. Bu təsvir və qeydlərə əsasən, Borçalının ərazisinin indiki Gürcüstanın cənub-şərq-Dmanis (Başkeçid), Bolnis (Çörük Qəmərli), Marneul (Sarvan, Candar, Qızılhacılı), Qardaban (Qaratəpə-Qarayazı), Zalqa-Barmaqsız (bir hissəsi), Rustavi (Bostanşəhər), indiki Ermənistan Respublikasının şimal-Noyamberyan (Baranlı), Spitak (Hamamlı), Amasiya (Ağbaba), Stepanavan (Calaloğlu), Kalino (Daşır) bölgələrini əhatə etdiyi müəyyənləşdirilmişdir. Bu bölgələrdə həmişə azərbaycanlılar yaşamış və onların sayı çoxluq təşkil etmişdir.

Etnoqrafik və ədəbiyyat materialları göstərir ki, Borçalıda yaşayan əhalinin böyük əksəriyyətini azərbaycanlılar – türklər təşkil etmişlər. 1832-ci ilin sayımına aid sənəddə Borçalı məntəqəsində 145 kənd, 4092 ev (tüstü), 8479 tatar (azərbaycanlı – Ə.Ə.), 767 yunan, 669 gürcü, 213 alman, ümumilikdə isə 13762 nəfər kişi cinsi barədə söz açılmışdır.

1865-ci ilin sayımında Qarayazının kəndlərində olan evlərin və əhalinin sayı belə göstərilmişdir: Soğanlıq 19 ailə-120 nəfər, Qaracalar 69 ailə-498 nəfər, Ağtəhlə 106 ailə-1064 nəfər, Qaratəhlə 29 ailə-333 nəfər, Dəmirtəpə 9 ailə-82 nəfər, Məşədiabad 15 ailə-49 nəfər, Qruzinovka 15 ailə-49 nəfər, Gültəpə 20 ailə-149 nəfər, Hacılar 104 ailə-898 nəfər, Tabahlı 78 ailə-706 nəfər, Gölkənd 46 ailə-265 nəfər, Sərtçala-Muğanlı 74 ailə-364 nəfər. Riyazi hesablama aparsaq görərik ki, həmin dövrdə Soğanlıq kəndində hər ailədə təxminən 6-7, Qaracalarda 7-8, Ağtəhlədə 10-11, Qaratəhlədə 11-12, Dəmirtəpədə 9-10, Məşədiabadda 3-4, Qruzinovkada 5-6, Sərtçala-Muğanlıda 4-5 nəfər yaşayırdı.

Gürcüstan azərbaycanlıları təkcə irəlidə adları çəkilən yaşayış məntəqələrində deyil, Tiflis quberniyasının başqa yerlərində - Tiflis

şəhərində, Tiflis, Telav, Sığnaq qəzalarında da yığcam halda yaşayırdılar. Tiflisdə azərbaycanlılar-türklər 1835-ci ildə 723, 1865-ci ildə 1523, 1876-cı ildə 2310, 1886-cı ildə 1275 nəfər idilər. Onlar şəhərin əsasən Meydan, Müsəlman Qəbiristanı, Sololak, Bağlar məhəllələrində, İrakli küçəsində, Aleksandrovski bağı və Soldat bazarı deyilən həndəvərdə cəmləşmişdilər. Tiflis qəzasında 1880-ci ildə 9438, 1886-cı ildə 6437 nəfər soydaşımız qeydə alınmışdı. Azərbaycanlılar ən çox Qarayazı nahiyəsində idi. 1886-cı ildə burada ümuməhalinin 94,6 faizini (4754 nəfər) onlar təşkil edirdilər. Telav qəzasında 1880-ci ildə 1599, 1869-cu ildə Qaracalar kəndində 1372, Kəpənəkçidə 242 nəfər, 1886-cı ildə Borçalı qəzasının Yekaterinenfeld (Bolus) nahiyəsində ümuməhalinin 71,8 % (10,028 nəfər), Borçalı nahiyəsində 64 % (12,377 nəfər), Trialet, Loru nahiyəsində 20-30 %, Sığnaq qəzasında 3220 nəfər, Telav qəzasında 1600-dən çox azərbaycanlı-türk olduğu göstərilirdi.

Soraqlardan bəlli olur ki, XX əsrin əvvəllərində Tiflis quberniyasında azərbaycanlılar-türklər 107623 nəfər idi və bunun 63337-si Borçalı qəzasında, 7749-u Tiflis qəzasnda, 6635-i isə Tiflis şəhərində yaşayırdı. Borçalı qəzasının Borçalı nahiyəsində soydaşlarımız 36065, Trialet nahiyəsində 10560, Yekaterinenfeld nahiyəsində 13762, Loruda 3058 nəfər təşkil edirdilər. Soydaşlarımızın say çoxluğu 1918-ci ildə də özünü göstərirdi. Belə ki, həmin ərəfədə Borçalı və Qarayazıda əhalinin çoxu azərbaycanlılar idi. Ələlxüsus, Borçalının orta hissəsində əhalinin 93 %-i (36615 nəfər), Qarayazıda isə 88,8 % -i (7419 nəfər) azərbaycanlılardan ibarətiydi.

Tarixi məlumatlar göstərir ki, 1918-1920-ci illərdə, yəni Azərbaycan Xalq Cümhuriyyəti zamanında Borçalı Azərbaycan, Gürcüstan və Ermənistan arasında mübahisəli ərazi sayılmışdır. Bütün yönləri ilə (milli, etnik prinsipə əsasən) Azərbaycana məxsus olacaq Borçalı torpağı uğrunda 1918-ci ilin axırlarında Gürcüstan və Ermənistan müharibə aparmışdır. Danışıqlar əsasında dayandırılan müharibədə barışıq şərti olaraq Borçalının dörd nahiyəsindən (Borçalı, Yekaterinenfeld-Bolus, Loru, Trialet-Dmanis-Zalqa) biri, həm də ən böyüyü, Borçalının güney parası-Loru nahiyəsi neytral zona elan edilib. 1921-ci ildə şura

hökumətinin gəlişi ilə “beynəlmiləlçilik” siyasətinə əsasən həmin zona, yəni Ermənistanın indiki Noyemberyan, Tumanyan, Stepanavan, Kalinino rayonlarının əraziləri daşnak tör-töküntülərinə verildi. Bununla da Borçalı ərazisinin çox hissəsi bölünərək Cənubi Qafqaza gəlmə olan yadelli ermənilərin əlinə keçdi.

İrəlidə qeyd etdiyimiz kimi, istər Borçalının bölünmüş ərazilərində, istərsə də Borçalı adı altında məlum olan digər tarixi torpaqlarımızda həmişə azərbaycanlılar yaşamış və onlar bu ərazilərdə say baxımından çoxluq təşkil etmişlər. Dissertasiyanın birinci fəslində bu haqda geniş bilgi yer almışdır.

İddialara görə, Gürcüstan azərbaycanlıları yaşadıqları ərazilərdə, əsasən, XV-XVII əsrlərdən məskunlaşmışlar. Lakin bu, tarixi faktlarla təkzib edilir və göstərilir ki, qədimdə Qazax-Ağstafa mahalının bilavasitə davamı olan həmin bölgədə e.ə. VIII-VII əsrlərdən başlayaraq türkmənşəli kəmər, sadak, quqar, qıpçaq, kəngər, cinli tayfalarının, XI-XII əsrlərdən isə oğuzların yaşaması danılmaz həqiqətdir.

Qədim gürcü mənbələrində göstərilir ki, e.ə. IV əsrdə, Makedoniyalı İsgəndərin Gürcüstana yürüşü zamanı Kür çayının sahilində Buntürk adlı tayfa yaşayırdı. Alınmaz qala divarları ilə əhatə olunmuş dörd iri şəhəri və güclü qoşuna malik buntürkləri İsgəndər məğlub edə bilməmişdir.

“Buntürk” etnoniminin “ayrı düşmüş, bunlamış türklər”, “Türk tayfası”, “nizəli türklər”, “oturaq türklər”, “əsil, yerli türklər”, “təmiz türk”, “qədim türk”, “hun türk”, “qara bulqarlar” və s. kimi müxtəlif məna çaları vardır. Akademik Q.A.Melikişviliyə görə, qədim gürcü mənbələrinin Şərqi Gürcüstan ərazisindəki həmin maraqlı xalqı gah “buntürk”, gah “hun”, gah “xəzər”, gah da “qıpçaq” adlandırılmasından görünür ki, söhbət ən qədim buntürklərlə yanaşı həmin əraziyə bir-birinin ardınca gəlmiş hunlardan / IV-VI əsrlər/, xəzərlərdən /VII-VIII, həmçinin IX əsrlər/ və qıpçaqlardan /XI əsr/ gedir.

Birinci fəsildə bütün bu məsələlər öz genşiliyi ilə əhatə olunur və göstərilir ki, tədqiqatçıların da dediyi kimi, bütünlükdə tarix həmin torpağın tarixini yaşadanların, müasir dövrə gətirib çıxaranlarındır. Çünki bu tarix yalnız torpağın, coğrafi

koordinatların hesaba alınması deyil, həmin koordinatlarda baş vermiş ictimai təkamülün, etnik inkişafın, maddi və mənəvi mədəniyyətin tarixidir. Elə Gürcüstan azərbaycanlıları-türkləri də yuxarıda adları çəkilən türk tayfalarının törəmələri, birbaşa varisləridir ki, hazırda da Gürcüstanda doğma yurdlarında yaşamaqlarına davam edirlər.

İkinci fəsil "**Təsərrüfat məişəti və sənətkarlıq**" adlanır. Bu fəsil "Əkinçilik", "Bağçılıq, bostançılıq, tərəvəzçilik və üzümçülük", "Maldarlıq" və "Sənətkarlıq" bölmələrindən ibarətdir.

Fəsilin birinci ("**Əkinçilik**") bölməsində qeyd olunur ki, Gürcüstan azərbaycanlılarının iqtisadi həyatında əkinçilik təsərrüfatı mühüm yer tutmuşdur. Gürcü arxeoloqlarının apardığı qazıntılar zamanı aşkar edilən Arıxlı I və Arıxlı II düşərgələrindən məlum olur ki, hələ Eneolit dövründə Gürcüstan azərbaycanlıları yaşayan ərazilərdə yüksək əkinçilik mədəniyyəti mövcud idi. Materiallar göstərir ki, bu amil öz varlığını XIX-XX əsrin əvvəllərində, həmçinin sonrakı illərdə də saxlamışdır.

Əkinçilikdə yerin seçilməsi, şumlanması, toxumun səpilməsi, sahənin suvarılması, taxılın biçilib daşınması, döyülməsi, dənin üyüdülməsi və s. amillər ən mühüm şərtlərdən sayılırdı. Tədqiq etdiyimiz bölgələrin əhalisi XIX-XX əsrin əvvəllərində torpağın əkin üçün keyfiyyətli olub-olmadığını bilmək üçün müəyyən təcrübələrdən istifadə edərdilər. Həyatının çox hissəsini əkin-biçin işlərində keçirən dünyagörmüş qocaların dediyinə görə, seçilən ərazinin münasibliyi yağışlı günlərdə daha yaxşı bilinirdi. Belə ki, yağışdan sonra yer çatlamırdısa, deməli, seçilən əkin sahəsinin torpağı yüksək keyfiyyətli, çatlayırdısa yararsız sayılırdı.

Etnoqrafik materiallar göstərir ki, əkin sahəsini şumlayarkən xış, yaxud cütdən istifadə olunardı. Xışa iki boyun öküz qoşular və şumlama prosesi bir nəfərin idarəçiliyi ilə həyata keçirilərdi. O, sol əliylə xış və ya cütün dəstəyini tutar, sağ əliylə isə öküzləri çubuqla döyəcləyərək yerindən tərpədərdi. Bol məhsul götürmək üçün əkin yeri cərgələrlə üç dəfə şumlanardı. Bununla bağlı öyrəndiyimiz əhali arasında belə bir deyim də formalaşmışdır: "birinci şum daraq, ikinci şum sığal, üçüncü şum maraqdır". Xalqın düşüncəsinə görə bu deyimin açması belə idi: torpağın birinci şumu onu daramaq-

altını üstünə çevirməkdir, ikinci şumu çevrilən torpağı sığallamaq-narınlaşdırmaqdır, üçüncü şumu isə kəndlinin bol məhsula olan marağıdır, yəni o, torpağı üçüncü dəfə şumlamaqla daha çox bar-bərəkət əldə etmək istəyir.

Azərbaycanda olduğu kimi, tədqiq etdiyimiz ərazilərdə xışlar müxtəlif adlarla (ulamalı, çatma, işgilli və s.) ifadə edilirdi. Ağacdan hazırlanan bəzi xışın ucuna dəmir gavahın düzəldilərdi. Dəmir gavahınlı xışların tarixi çox qədimlərlə səsləşir. Bunu e.ə. IV-II əsrlərə aid olub, Gürcüstanın Uplistixe və Suxumi yaxınlığından tapılan dəmir gavahın da təsdiq edir. Sözügedən qiymətli tapıntı göstərilən ərəfədə təkcə Gürcüstan ərazisində deyil, həm də Cənubi Qafqazda bir şumlama vasitəsi idi.

Tədqiq etdiyimiz dövrdə öyrəndiyimiz əhali arasında ən geniş yayılmış şum aləti Cənubi Qafqazda təxminən VIII-IX əsrlərdən bəlli olan ağır və ya qara kotan idi. XIX əsrə aid mənbədə qeyd edilir ki, Borçalının bütün aran hissəsi əkinçilik üçün yararlıdır və əkin sahələri ağır ağac kotanlarla şumlanır. Ağac kotanlara 8-12 boyun öküz qoşulur. Borçalı qəzası şumlama sahəsində yüksək nailiyyət əldə edibdir. Yerli kotanlarla birgə, son vaxtlar qəzada dəmir kotanlardan da istifadə olunur. Dəmir kotanlar 5-6 boyun öküz, yaxud 4-6 baş atla hərəkətə gətirilir. Digər qəzalarda isə dəmir kotanlara rast gəlinmir.

Qara kotanın meydana çıxması əkinçiliyin yalnız inkişafını deyil, eyni zamanda onun təsərrüfat sahələri içərisində əsas yerlərdən birini tutduğunu göstərən mühüm amillərdən idi. Əkinçilər belə təkmilləşmiş alətin vasitəsilə daha geniş sahəni yüksək keyfiyyətlə şumlamaq imkanına malik olmuşlar.

Azərbaycanda işlədilən kotanların təkrarı olan və yerli ustalar tərəfindən hazırlanan ağac kotanlar torpağı daha dərindən şumlayırdı. Kotanı ona qoşulan öküzlərin sayından asılı olaraq bir neçə hodaqçı-çubuqçu və macgəlçi-rəncbər idarə edirdi. Bu şum alətinə 6 öküz və ya kəl qoşulardısa, birinci cüt öküzü idarə edən xarazən (dib) hodağı, ikinci cütlüyü idarə edən qaraqayış hodağı, üçüncü cütlüyü idarə edən isə hörük hodağı adlanırdı. Kotana qoşulan heyvanların adına gəldikdə isə, birinci cütünə xarazən, ikinci cütünə qaraqayış, üçüncü cütünə hörük deyilmişdir.

Şumlamadan sonra səpinə başlanardı. Dağlıq ərazidə payızlıq buğda və arpa sentyabr-oktyabr aylarında, yazlıq toxum mart ayının sonundan mayın 20-nə kimi , aran yerlərində payızlıq sentyabrdan noyabra qədər, yazlıq isə martın ortalarından aprelin sonunadək olan ərəfədə həyata keçirilərdi. Toxum səpilən kimi torpağın üzü malalanırdı. Bu proses şax mala, dırmıq adlanan əmək aləti vasitəsilə həyata keçirilərdi. Əhali arasında malaya "tapan" da deyilirdi.

Səpin və malalamadan sonra taxıl zəmiləri çay, yaxud kanaldan çəkilmiş arxlar, yaradılmış su tutacaqları vasitəsilə suvarılırdı. Suvarmada, əsasən, şırım üsuluna üstünlük verilərdi. Çünki, selləmə üsulundan fərqli olaraq su birbaşa əkin sahəsinə buraxılmır, əvvəlcədən hazırlanmış şırımlara axıdılırdı. Sahənin yuxarı başından şırımlara buraxılan su aşağı hissəyə doğru axır və torpağın altı ilə bütün sahəyə bərabər şəkildə paylanırdı.

Taxıl biçini iyun ayının əvvəlindən başlayar və iyulun sonuna qədər davam edərdi. Əsas biçin aləti oraq və çin idi. Bu alətlər oxşar görünsə də, bir-birindən dişli (çin) və dişsiz (oraq) olması ilə fərqlənirdi. Dən itkisinin qarşısını almaq üçün taxıl seyrək və gödəkkən dəryazla da biçilirdi. Bir əl tutumu biçilmiş taxıl bafa adlanırdı. Bafanın on qomunu bir yerə yığıb dərz bağlayırdılar. Bağlanmış dərzlər qurudulub pencələrə-xaraya (bir pencədə on dərz olurdu) yığılırdı. Arabalarla həyətə daşınan dərzlərin dənini qılçıqdan təmizləmək üçün onu ağac dəyənəklə, xırman yerlərindəkini isə at və öküz vasitəsilə döyürdülər. Taxıl döyümü zamanı yaba, şana, kürək, süpürgə, xəlbir, şadara, hövsər və s. kimi əmək aləti, həmçinin digər əşyalardan da istifadə edilirdi.

Suvarılmayan (dəmyə) torpaqlarla müqayisədə suvarılan ərazilər təxminən 25% artıq məhsul verirdi. Orta hesabla suvarılan torpaqdan 125 pud buğda, 115 pud arpa, suvarılmayan sahədən isə 100-120 pud buğda, 90-100 pud arpa götürülürdü. Gürcüstan azərbaycanlıları yaşayan düzən ərazilərdə yetişdirilən ağ və sarı buğda keyfiyyətinə görə Cənubi Qafqazda birinci yeri tuturdu. Ümumiyyətlə, mövcud olan 16 buğda növündən 11-nin Gürcüstanda becərildiyi barədə bilgilər vardır.

Girdə, yağlı, qabığı zərif olan Borçalı buğdasından çox ətirli ağ un alınırdı. Borçalı, Qarayazı, Başkeçid, Bolus və soydaşlarımız yaşayan digər ərazilərdə buğda və arpa ilə bərabər, çəltik, yulaf, pərinc (buğda növü), çovdar, darı, qarabaşaq, günəbaxan, qarğıdalı, pambıq, həmçinin də tütün yetişdirilirdi. Ümumiyyətlə, Gürcüstan azərbaycanlıları yaşayan bölgələrin torpaqları digər yerlərinkindən üstün idi. Günəş şüalarının və suyun bolluğu burada ən qiymətli bitkilərin yetişməsini təmin edirdi.

"Bağçılıq, bostançılıq, tərəvəzçilik və üzümçülük" bölməsində qeyd edilir ki, Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərin mülayim iqlimi, saf, təmiz havası, torpağının münbit və məhsuldarlığı burada təbii meyvə ağaclarının, giləmeyvə bitkilərinin-cır alma, armud, zoğal, heyva, nar, əzgil, gilas, gilənar (albalı), göyəm, yemişan, alça, üzüm, tut, fındıq, qoz, badam, püstə, moruq, çiyələk, böyürtikan və s-nin yetişməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, hələ IX-X əsr ərəb müəllifləri Arranın üçüncü böyük şəhəri sayılan və müsəlman Cəfərilər sülaləsinin tabeliyində olan Tiflis barədə yazırdılar ki, bura çox məhsuldar, meyvəsi və əkin torpaqları bol olan yerdir. Bu bölmədə o da vurğulanır ki, zaman-zaman Tiflisdən başqa ərazilərə meyvə ağaclarının şitilləri daşınmışdır.

Gürcüstan azərbaycanlıları yaşayan dağətəyi və düzənlik ərazilərin kəndlərində bostan və tərəvəz məhsulları (qarpız, yemiş, balqabaq, xiyar, pomidor, soğan, sarımsaq, lobya, kələm, badımcan, çuğundur, turp, yerkökü və s.) yetişdirilirdi. Əhalinin təsərrüfat həyatında göy-göyərti məhsulları (keşniş, cəfəri, şüyüd, reyhan, tərxun, göy soğan və s.) da mühüm yer tuturdu. Ağır zəhmət tələb edən sahə olsa da, XX əsrin əvvəllərində Qarayazı bölgəsinin kəndlərində 12 adda göyərti məhsulu becərilirdi. Etnoqrafik səfər zamanı məlum oldu ki, adıçəkilən bölgənin kəndlərində hazırda 20-dən çox göyərti növü yetişdirilir.

Əhalinin təsərrüfat həyatında üzümçülük də mühüm rol oynamış və burada dadı, ətri, rəngi, forması, şirəliliyi, giləsinin iri, xırda olması baxımından bir-birindən fərqlənən "xanlıq", "sarısaçaq", "çaqqalboğan", "qorel", "girkəni", "lək", "sahabı", "Borçalı" kimi üzüm növləri yetişdirilirdi. Bu bölmədə üzüm

tənəklərinin becərilmə üsulları, ona qulluq qaydası, üzüm meyvəsindən alınan müxtəlif adda məhsullar, içkilər və s. barədə geniş məlumat verilir.

"**Maldarlıq**" bölməsində qeyd edilir ki, Gürcüstan azərbaycanlıları yaşayan bölgələrin səfalı yaylaqlara, alp çəmənliklərə, zəngin və keyfiyyətli bitki örtüyünə, geniş otlaqlara, şır-şır çaylara, bulaqlara malikliyi burada maldarlığın inkişafına, həmçinin əsas məşğuliyyət sahələrindən birinə çevrilməsinə, əsrlər boyu əkinçiliklə birlikdə əhalinin iqtisadi həyatının əsasını təşkil etməsinə səbəb olmuşdur. Burada tədqiq edilən dövrdə maldarlığın oturaq və elat-tərəkəmə olmaqla iki formada təzahür etdiyi, yerli inək cinsinin "Tərəkəmə" adlandırıldığı, bu təsərrüfatda qoyunçuluğun daha çox əhəmiyyət daşıdığı vurğulanır.

Qarayazı, Borçalı, Bolus, Baçkeçiddə, habelə Saqareco, Laqodex, Telav, Kaspi və Msxet yörələrindəki azərbaycanlı kəndlərində "Tərəkəmə", "Bozax", "Qarabağ", "Tuş", "Merinos" və s. qoyun cinsləri intişar tapmışdı. Ətindən, südündən, yunundan istifadə edilməsi qoyunçuluğun ən gərəkli sahəyə çevrilməsinə stimul vermişdir. Mövsümlə əlaqədar olaraq qoyunlar yayda yaylaqda, qışda qışlaqda saxlanardı. Bu bölmədə qoyunların yaş dövrünə uyğun adları, qoyunların otarılmasında və dölün mütəşəkkil keçirilməsində çobanların səriştəsi, sağım prosesi, quzulara qulluq qaydaları, onların düçar olduqları xəstəliklərin empirik biliklərə əsasən müalicəsi və s. barədə geniş məlumatlar verilir.

"**Sənətkarlıq**" bölməsində bildirilir ki, XIX əsrin sonuna aid mənbəyə əsasən, Borçalı qəzasının Şüləver və Cəlaloğlu yörəsində 147 dəmirçi, 62 nalbənd, 69 bənna, 73 çəkməçi, 38 dərzi, 163 dülgər, 17 xarrat, 57 təkərçi, 42 papaqçı, 9 sərrac, 20 mişarçı, 4 peç ustası, 3 çilingər, 2 kürkçü, 1 tənəkçi, 2 şüşəsalan, 12 çəlləkçi, 52 bərbər, 60 zurnaçı fəaliyyət göstərirdi. Onlar təkcə bu işlə kifayətlənməyib, həm də əkinçilik və maldarlıqla məşğul idilər.

Daşişləmə sənət növü kimi öyrəndiyimiz ərazilərdə çox qədimdən intişar tapmışdır. Bunu Başkeçid, Bolus, Borçalı, Ağbulaq, Axalkələk, Msxet bölgələrində, Tiflis şəhərinin müxtəlif

guşələrində mövcudluğunu hazırda da qoruyub saxlayan qədim qoç və at heykəlləri də nişan verməkdədir.

Dissertasiyada ağacişləmədən söhbət gedərkən göstərilir ki, burada ağacişləmə sənətinin geniş yayılması öyrənilən əhalinin yaşadığı ərazilərin zəngin meşələrlə əhatə olunmasından, həm də təsərrüfat və məişət avadanlığına, habelə istehsal alətlərinə yaranan tələbatdan irəli gəlirdi. Bu bölmədə ağacdan tikinti materialı kimi istifadə edilməsi, əkinçilik və əmək alətləri, nəqliyyat növləri (xış, kotan, araba, xizək-kirşə, vəl, bel, dırmıq, yaba və s.), müxtəlif növ ev məişəti əşyaları (taxt, divan, kürsü, beşik, nənni, anbar, sandıq və s.), mətbəx və süfrə ləvazimatları (nehrə, təknə, tabaq, üçayaq, oxlov, ələk, duvaq, ət kötüyü, boşqab, nimçə, qaşıq, çömçə, duzqabı, qəndqabı və s.), toxuculuq vasitələri (dəzgah, cəhrə, daraq, hana ağacı, kirkit və s.), musiqi alətləri (saz, zurna, tütək, balaban, dəf, nağara və s.) hazırlanması barədə geniş bilgi verilir.

İşdə dəmirçiliyə diqqət yönəldilərk vurğulanır ki, öyrənilən bölgələrin kəndlərində dəmirçiliklə məşğul olanlar emalatxanalarını əsasən öz həyətlərində, şəhər sənətkarları isə əhalinin daha çox yığışdığı bazarlarda, yaxud onların həndəvərində açaradılar. Burada ənənəvi qaydada həm təsərrüfat, sənətkarlıq, inşaat alətləri, məişət əşyaları istehsal edilir, həm də onların satışı həyata keçirilirdi. Daha sonra misgərlik və dabbağlıq sənəti haqqında danışılır, bu sahələrin inkişafına səbəb olan vasitələrə, əhalinin məişətində tutduğu yerə və s. diqqət çəkilir.

Toxuculuq barədə məlumat verilərkən qeyd edilir ki, xammal (yun) ehtiyatının bolluğu ta qədimlərdən tədqiq etdiyimiz bölgələrdə toxuculuq sənətinin inkişafına səbəb olmuş və toxuculuqda başlıca yeri müxtəlif çeşnili xalça-palaz məmulatları istehsalı tutmuşdur. Etnoqrafik materialları göstərir ki, tədqiq olunan bölgələrdə toxunan xalçaların hər birinin özünəməxsus adları vardır. Məsələn, "Qırxquyrum", "Çiyinli", "Marallı", "Üç göl", "Dörd göl", "Yeddi göl", "Yaşıllı" (Qaraçöp mahalı), "Gərdək", "Qoç buynuzu", "Düyə boynu", "Çərkəzi", "Taxta-taxta", "Qızılquyrum", "Güzgülü", "Sümük", "Can", "Əndər-döndər" (Təhlə çökəyi), "Qoç buynuzu", "Aftafa" (Qarakənd-Kosalar eli), "Ziynətnişan və "Zeyvənişan" (Qızılhacılı),

mütəxəssislərin Borçalı qarapapaqlarının adı ilə əlaqələndirdiyi "Papaqlı", Borçalıda toxunub Azərbaycan İncəsənət Muzeyində saxlanan "Qaraqoyunlu", həmçinin "Faxralı", "Ləmbəli", "Dəmirçihəsənli" və s. kimi xalça-palazlar bu qəbildən idi. Bütün bu xalça-palazların toxunuşu və üzərlərindəki naxışlar barədə sözügedən hissədə ətraflı danışılır.

Sənətkarlıq bölməsində tikmə və keçəçilik sənət növünün XIX-XX əsrin əvvəllərində əhalinin məişətindəki yeri barədə də müfəssəl məlumat verilir.

Dissertasiyanın üçüncü fəsli "**Maddi mədəniyyət**"in etnoqrafik tədqiqinə həsr edilmişdir. Fəslin birinci bölməsində ("**Yaşayış məskənləri**") qeyd olunur ki, insan cəmiyyətinin qədim abidəsi sayılan yaşayış məskənləri çox qədim tarixə malikdir. Bu bölmədə arxeoloji qazıntıların nəticələrinə əsasən ən qədim yaşayış məskən tipi mağara olduğu və mağaranın özünün də təbii və süni xarakter daşıdığı vurğulanır. Burada qeyd olunur ki, təbii mağaralar-sığınacaqlar təbiətin çılğınlığı nəticəsində meydana gəlsə də, süni mağaralar vəhşi heyvanlardan, sərt və isti iqlim şəraitindən qorunmaq üçün insanların özləri tərəfindən, əsasən, böyük və kiçik çay sahillərində yaradılardı. Ədəbiyyat materialları və etnoqrafik məlumatlar göstərir ki, bu tipli xalq yaşayış məskənləri bəzi yerlərdə öz mövcudluğunu XX əsrin əvvəllərinə kimi saxlamışdır. Baş verən ictimai-iqtisadi dəyişikliklər yeni-yeni xalq yaşayış tiplərinin yaranmasına şərait yaradırdı. Tədqiqat nəticəsində məlum olmuşdur ki, araşdırılan dövrdə Gürcüstanın azərbaycanlılarının xalq yaşayış məskənləri müvəqqəti (oba, şenlik, binə, qışlaq, yaylaq və s.) və daimi (kənd, şəhər və s.) olmaqla iki qrupa bölünürdü.

Araşdırma göstərir ki, XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları yaşayan bölgələrdə ən geniş yayılmış yaşayış məskəni kənd olmuşdur. Kəndi digər yaşayış məskən tiplərindən fərqləndirən, etnoqrafik ədəbiyyatda da vurğulandığı kimi, onun oturaq əhaliyə, eləcə də daimi yaşayış evlərinə, təsərrüfat tikililərinə, həyətyanı sahələrə, inzibati, sosial-mədəni, həmçinin dini mərkəzlərə, ümumi otlaqlara, əkin yerlərinə, içməli sulara, ayrıca qəbiristanlığa malik olması və əhalisinin etnik tərkibinin eyniliyi idi.

XIX-XX əsrin əvvəllərində kəndlər qohumluq prinsipinə uyğun olaraq bir neçə patronomik qrupdan təşkil edilmişdi. Məsələn, Başkeçid bölgəsinin Aşağı Oruzman kəndi üç qrupdan-Niyazlı evlərindən, Qarausublardan və Həşimlilərdən, Muğanlı kəndi on patronomik qrupdan-Yekə Əhmədlərdən, Balakişilərdən, Seyranlılardan, Osmanlılardan, Nəzər evlərindən, Kələşlilərdən, Nəsiflərdən, Soyxalılardan, Gəncəlilərdən, Dəlləklilərdən, Dağ Arıxlı kəndi isə səkkiz patronomik qrupdan-Gülsənəmlilərdən, Oruclulardan, Culfalılardan, Şahalı evlərindən, Qamışlılardan, Dəmirlilərdən, Sofululardan və Eyyublulardan ibarət idi. Etnoqrafik araşdırmamız göstərir ki, kəndlərin bu cür təşkili Gürcüstan azərbaycanlıları yaşayan digər bölgələrin kəndləri üçün də xarakterik olmuşdur. Zaman keçdikcə bu tipli kəndlər öz patronomikliyini itirərək qonşuluq prinsipinə uyğunlaşdırılmışdır. Yəni, tayfa, nəsil, ocaq, uşağı, cilək və s. kimi terminlərlə ifadə olunan patronomik qrupların böyüyüb parçalanması və ya yerdəyişməsi nəticəsində əvvəlki qayda pozulmuş və kəndin yaradılmasında daha çox qonşuluq prinsipi əsas götürülmüşdür.

Tədqiq etdiyimiz bölgələrdə əhalisinin etnik tərkibi qarışıq olan bir neçə kənd də aşkar edilmişdir. Məsələn, Qarayazının Vayovka (Vaxtangisi), Kaspinin Axalkələk, Təzəkənd (Axalsopeli), Cələ (Mukelcğaro), Tedosminda, Msxetin Hasanalılar (Ağayan), Çömbərli (Qarahasanlı)-Sixisdziri məhz bu tiplidir. Lakin əvvəllər bu kəndlərin əhalisi sırf azərbaycanlılardan ibarət olmuşdur.

Gürcüstan azərbaycanlılarının yaşadığı kəndlər yerin relyef quruluşuna uyğun olaraq yamac, yarımyamac, düzənlik və yaxud yarımyamac və meşəətrafı, yarımyamac və çayqırağı, düzənlik və çayqırağı kimi qruplaşdırılmışdır. Kəndlərin formasına gəldikdə isə, onların topa, dağınıq və sıx-qarışıq tipli olduğu müəyyənləşdirilmişdir. Topa tipli kəndlərin formalaşmasında qan qohumluğu ilə birləşən icma üzvlərinin bir yerdə yaşamaq istəyi, təbii-coğrafi şərait, yerin relyef quruluşu, əhalinin təsərrüfat fəaliyyətinin istiqaməti və məişət tərzi, həyətyanı torpaq sahələrinin azlığı, dağınıq kəndlərin yaranmasında, əsasən, torpaq sahələrinin bolluğu, sıx-qarışıq formalı kəndlərin salınmasında isə böyük ailələrin parçalanması nəticəsində yaranan yeni ailələrin köhnə

yurdda qalaraq özlərinə ev tikmələri, eləcə də digər sosial-iqtisadi amillərin mühüm rol oynadığı bildirilir.

Fəslin ikinci bölməsində "**Yaşayış evləri**" etnoqrafik tədqiqata cəlb olunub. Burada qeyd edilir ki, təbii-coğrafi şəraitdən, yerin relyef quruluşundan, təsərrüfat məişətinin xarakterindən, ailənin formasından, ictimai quruluşun dəyişməsindən, insanların həyat tərzindən, eləcə də tikinti materialının növündən asılı olaraq yaşayış evləri iki qrupa ayrılırdı: a) oturaq əhaliyə məxsus daimi yaşayış evləri (qaradam, saray, "cımğa ev", işıqlı ev və s.), b) elatlara məxsus müvəqqəti yaşayış evləri (alaçıq, dəyə, koxu və s.). Cənubi Qafqaz ərazisində e.ə. II minilliyin, bəzi tədqiqatçılara görə isə e.ə. III minilliyin ortalarında meydana gəldiyi vurğulanan və gürcülərin "darbazi", "saxli" adlandırdığı qaradamlar Gürcüstan azərbaycanlıları arasında "çardaxlı dam", "yer damı", "beşik dam", "öy damı", "dam", "torpaq dam", "yastı dam" və s. kimi terminlərlə ifadə olunurdu. Tədqiqat göstərir ki, qaradamlar yeraltı və yerüstü olmaqla iki tipə bölünürdü. Yeraltı qaradamlar birgözlü olaraq taxta arakəsmə ilə iki hissəyə ayrılırdı. Yerüstü qaradamlar isə çay daşından və ya çiy kərpicdən tikilib, iki gözdən ibarət olurdu. Bu bölmədə qaradamın hər iki tipinin təsviri və etnoqrafik səciyyəsi barədə geniş məlumat verilir.

Saray tipli evlər bir neçə otaqlı, iri pəncərəli, eyvanlı və hündür tavanlı olması ilə qaradamlardan fərqlənərdi. Divarlarının düz, suvaqlı, tavanının boyaqlı, otaqlarının işıqlı və geniş olması evin interyerinə əsrarəngiz gözəllik verirdi. Bu bölmədə "Cımğa ev", həmçinin XX əsrin əvvəlindən çay daşı ilə, ikinci yarısından etibarən isə qırmızı kərpiclə hörülən "aynəbəndli ev", "imarət" və ya "işıqlı ev" və s. barədə də məlumat verilir, etnoqrafik xarakteristikası göstərilir. Burada evlərin tikintisində xalqın əsrlər boyu topladığı zəngin empirik biliyə, təcrübə və vərdişlərə, nəsildən-nəsilə ötürülərək yaşadılan adət-ənənələrə əsaslanılması, evin tikintisində işlədin materiallar (gil, çiy və bişmiş kərpic, yonma qaya daşı, çay daşı, müxtəlif növ ağaclar, kirəmit, şifer, dəmir, gəc, əhəng, boya və s.) işlədilən əmək alətləri barədə geniş məlumat verilir.

Daimi yaşayış evləri qışlaqda (aranda), elatlara məxsus

müvəqqəti yaşayış evləri isə əsasən yaylaqda tikilərdi.

Üçüncü bölmədə "**Geyimlər"**in öyrənilməsinin vacibliyi qeyd edilir. Burada əvvəlcə qadın alt və üst paltarından söhbət açılaraq göstərilir ki, qadın alt paltarı köynək və tumandan ibarət idi. Köynəklər "can" və "üst" köynəyi olmaq etibarilə iki növə ayrılırdı. Alt köynəyini həm pambıq, həm ipək parçadan qadınların özləri tikərdi. Kasıb qadınların köynəyi əsasən pambıq parçadan hazırlanaraq uzun qollu və uzun ətəkli, yanları bütöv, yaxası, biləyinin ağzı və ətəyinin qıraqları bəzəksiz olurdu. Boğazının altından isə bir və ya iki ilgək-düymə ilə düymələnirdi. Bəzi səriştəli qadınlar köynəklərinin yaxa kəsiyinə ağ sapla "həşkə" adlanan bəzək vururdular. Xalq arasında belə köynəklərə "həşkəli köynək" deyilərdi. Varlı qadınların alt köynəyi isə ipək parçadan tikilərdi. Alt köynəyi kimi üst köynəyi də çox vaxt tuniki biçim üsulunda, biləyi bilərzikli (məcəli) və yelpəzəli (məcəsiz) olurdu. Məzər, önlük, arxalıq, katibi və s. də qadın üst geyimləri sırasında idi. Tumanlar alt, orta və üst tuman olmaqla üç çeşiddə hazırlanardı. Alt tuman "dizlik", orta tuman "cütbalaq", üst tuman isə "büzməli" və "çivrikli" sayılırdı. Rəngli pambıq parçadan tikilən dizlik orta tumanın altından geyilirdi.

Qadın baş geyimləri "örtmə" və "geymə" olmaqla iki qrupa bölünürdü. Birinci qrupa kəlağayı, şal, örpək, ləçək-yaylıq, ikinci qrupa isə araqçın, dingə və çalma daxil idi.

XIX-XX əsrin əvvəllərində qadın ayaq geyimlərini corab, badış, çarıq, başmaq, çust, nəleyin, məst, dabanlı uzunboğaz və yarımboğaz çəkmə təşkil edirdi. Bununla belə, Gürcüstanın azərbaycanlı qadınlarının istifadə etdiyi "dzuqa" adlı çox yumşaq ayaq geyimi də olmuşdur. Dzuqa ayaq geyiminin oxşar variantına yalnız acarlar arasında rast gəlinmişdir.

Qadın zinət əşyaları baş (çəngəlli çənəbənd-qarmaq), qulaq (müxtəlif formalı qızıl, gümüş tanalar-"gilası", "badamı", "aypara və s.), boyun ("arpa", "həmayıl", "aypara", "muncuqlu" və s. boyunbağıları), bel (qızıl, gümüş kəmərlər), bilək və barmaq (qolbağı və qaşlı, qaşsız üzüklər) bəzəklərindən ibarət idi.

Kişi geyimləri də alt və üst paltarına bölünürdü. Alt paltarını "can köynəyi" və "dizlik" təşkil edirdi. Kişi üst paltarı-köynək,

nifəli şalvar, arxalıq, sırıqlı, çuxa, kürk, yapıncı və s.-dən ibarət olmuşdur. Üst köynəyi "tuniki" və "kəsmə" olmaqla iki üsulla biçilirdi. Bu tipli köynəklər biçim üsuluna və tikiş texnikasına görə can köynəyindən fərqlənməsə də, parça materialı baxımından müxtəlif idi. Yəni üst köynəkləri bahalı parçalardan (qanovuz, atlas, məxmər, mahud və s.) biçilib tikilərdi. Azərbaycanda olduğu kimi, Gürcüstan azərbaycanlıları arasında "düzyaxa" və "çəpyaxa" formalı köynəklərdən istifadə edilsə də, "mindoylu" köynəyə daha çox üstünlük verilərdi. Etnoqraf alimlər (F.İ.Vəliyev) bunu mindoylu köynəyin hər iki tərəfə (astar və üz) geyinildiyindən, uzun müddət istifadədə qalması ilə əlaqələndirirlər. Adətən, köynəyin üstündən "sırıqlı" geyinərdilər. Sırıqlı kürək və döş hissələrindən ibarət biçilirdi. Qolsuz, astarlı, boğazdan aşağı yaxası düyməli və uzunluğu qurşağa qədər olan bu geyim tipinin içərisinə az miqdarda yun qatı döşəyib üzlə birlikdə sırıyardılar. "Sırıqlı" adı da məhz buradan yaranmışdır.

Ənənəvi kişi üst geyim dəstlərindən biri "dizlik" olmuşdur. Dizlik dörd hissədən (iki balaq, nifə və xişdək-miyança) biçilərək, qabağı bütöv olmaqla pambıq parçadan tikilərdi. Dizliyin balaqları ayrı-ayrılıqda paça yerinə xişdək (miyança) vasitəsilə birləşdirilirdi. Beldə durması üçün dizliyin bel hissəsinə nifə qoyulub tumanbağı keçirilirdi. Parça materialı və balağının uzunluğu nəzərə alınmazsa, "nifəli şalvar"ın biçim üsulu və tikiş texnikası dizliklə eyni olmuşdur.

Kişi üst geyim dəstlərindən biri də arxalıq idi. Adından türklərə mənsubluğu bir daha bəlli olan bu geyim tipi bütün Cənubi Qafqazda, eləcə də "beşmet" adı ilə Şərqi Avropa, Volqaboyu, Qafqaz, Ön və Orta Asiyanın bir çox xalqları arasında da geniş istifadəsini tapmışdır. Arxalıqlar önürlü (aşırmalı)və önürsüz olmaqla iki növə ayrılırdı. Önürlü arxalığın döşü cibli, yaxası şaquli şəkildə iki sıra, önürsüzünkü isə bir sıra düyməli olurdu. Biçim elementinə görə kürək, döş, ətək, qoltuqaltı və qolça hissələrindən ibarət olan arxalığı mahud, atlas, çit, sətin və s. parça materialından Tiflisdə xüsusi dərzilərə tikdirərdilər. Çünki arxalığın həm biçim üsulu, həm də tikiş texnikası sırıqlıyla müqayisədə çox qəliz olduğundan, bu işlə peşəkar dərzilər məşğul olurdu.

Kişilərə məxsus mövsümi səciyyəli üst geyimlərindən biri də yapıncı idi. Xüsusilə maldarlıqla məşğul olan əhalinin daha çox istifadə etdiyi yapıncı saçaqlı və saçaqsız olmaqla iki növdə hazırlanırdı. Yaşlı çobanların dediyinə görə, saçaqlı yapıncıdan yaylağa çıxan sərkər-baş çobanlar və varlı zümrələr istifadə edərdi. Bu tipli yapıncı yağışlı havalarda saçaqları vasitəsilə suyu tez axıtdığı üçün daha münasib sayılırdı. Saçaqsız yapıncı isə əsasən çobanların geyimi olub, xalq arasında "çoban yapıncısı" adlandırılırdı.

Kişi baş geyimləri əsasən dəri, keçə, parça və s. kimi materiallardan bir neçə formada hazırlanardı. Bu geyimlər tikmə ("motal papağı", "çoban papağı", "buxara papaq", "şikara papaq", "züllə papaq", "çərkəzi papaq", "qaragül papaq" və s.) və bağlama ("sarıq", "çalma" və s.) olmaqla iki yerə ayrılırdı.

XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında müxtəlif növlü kişi ayaq geyimlərindən-çarıq (üç köşəli, qızqaytaran), başmaq, məst, uzunboğaz çəkmə, xrom çəkmə, çust, corab, patava, dolaq, badış və s. istifadə edilmişdir. Sözügedən bu hissədə kişi ayaq geyimlərinin etnoqrafik xüsusiyyətləri araşdırılır.

**"Yeməklər"** barədə məlumat üçüncü fəslin dördüncü bölməsində verilmişdir. Burada yeməklərin rəngarəng, çoxçeşidli olması vurğulanır, həmçinin əhalinin yerləşdiyi təbii-coğrafi mühitdən, təsərrüfat məişətindən, sosial-iqtisadi vəziyyətdən, tarixi şəraitdən, dini baxışdan, etniklərarası bağlılıqdan asılılığı, mühafizəkarlığı qeyd edilir.

Dördüncü bölmənin birinci yarımbaşlığında yeməklərin tərkibinə görə bitki, ət və süd mənşəli olmaqla iki qrupa bölündüyü, etnoqrafik materiallara əsasən Qarayazı, Borçalı, Bolus, Başkeçid, Qaraçöp, Ağbulaq, Muxran çökəyi, Telav, Laqodex və s. bölgələrinin əkinçi əhalisinin yemək süfrəsində önəmli yeri bitki (buğda, arpa, qarğıdalı, darı, çəltik və s.) mənşəli bişmişlərin tutduğu barədə məlumat verilir.

Bitki mənşəli yeməklər içərisində ən başlıca yerdə çörək dururdu. Çörəklər növünə (acıtmalı və acıtmasız), tərkibinə (buğda, arpa, qarğıdalı, darı; qarışıqlığına-buğda-arpa; buğda-qarğıdalı və ya arpa-qarğıdalı), formasına (dəyirmi, yastı, uzunsov, nazik, qalın),

hansı çörəkbişirmə vasitəsi ilə bişirilməsinə (sacda, təndirdə, fırında və s.) görə bir-birindən fərqlənirdi. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının "tərəkəmə" adı ilə məlum olan çörəyi Tiflisdə ən baha qiymətə (20 qəpiyə) satılırdı. 1882-ci ildə Moskvada keçirilən Ümumrusiya sərgisində Borçalı müxtəlif mükafatlar almışdır. Əhalinin yemək öynəsində bitki mənşəli şirniyyat məmulatları da mühüm yer tuturdu: şəkərbura, paxlava, şəkərçörəyi, şorqoğal, həmçinin qatlama və fəsəli bu qəbildən idi.

Bitki mənşəli yeməklər içərisində xəmir xörəklərinin (çıxma xəngəl, sulu xəngəl, xəşil, quymaq, halva, umac, əriştəli isti, əriştəli aş, qovud və s.), həmçinin "yarma aşı", "yarma hörrəsi", "səməni halvası", "həlimaşı", "hədik" və s. kimi bişmişlərin də xüsusi yeri vardı. Əhali arasında bitki mənşəli düyüdən hazırlanan yeməklər də əsas yer tuturdu. Düyü bişmişləri içərisində ən başlıca yerdə "aş-plov" dayanırdı. Aşın-plovun "qaralı aş", "əriştəli aş", "döşlü aş", "cücəli aş", "cığırtmalı aş" kimi növlərindən daha çox istifadə olunardı.

Gürcüstan azərbaycanlılarının yemək öynəsində bağ-bostan və tərəvəz bitkiləri, həmçinin yeməli yabanı bitkilər-cincilimotu, gicitikan, əvəlik, tərpətöyün, quzuqulağı, qulançar, quşəppəyi, köbələk və s. də mühüm yer tuturdu.

Ət mənşəli yeməklər haqqında məlumat ikinci yarımbaşlıqda verilir. Burada qeyd olunur ki, tədqiq edilən bölgələrin təsərrüfat həyatında əkinçiliklə yanaşı maldarlıq əsas məşğuliyyət sahəsi idi. Maldarlığın inkişafı isə onların mətbəxində ət və süd məhsullarının mühüm yer tutmasına stimul vermişdir. Əhali həm iribuynuzlu (dana, buzov), həm də xırdabuynuzlu (toğlu, quzu, çəpiş) heyvanların ətindən təzə və qovurma halında istifadə edərdi. Ətdən təzə halda bir sıra ənənəvi yeməklər-tikəkabab, lüləkabab, taskabab, sac kababı, təndir kababı, daş kababı, quyruq kababı, ciyər kababı, ürək kababı, döymə kabab, basdırma kabab, həmçinin "çoban" və "ev bozartması", pörtdəmə, küftə, dolma, piti, qorabasdırma və s. bişirilərdi. Ətdən hazırlanan qovurma və heyvanın baş-ayağından bişirilən xaş əsasən payız, qış aylarında yeyilərdi. Əhali təkcə ev heyvanlarının deyil, çöl və ev quşlarının, həmçinin müxtəlif növ balıqların ətindən də geniş istifadə etmişdir. Araşdırılan bölgələrdə

ən yüksək qiymətləndirilən sarımsaqlı quzu əti və Xram çayının balığı (xramuli) olmuşdur.

Üçüncü yarımbaşlıqda süd mənşəli yeməklər etnoqrafik araşdırmaya cəlb edilir. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının qida rasionunda süd və süd məhsulları da geniş yer tuturdu. Əhalinin istifadə etdiyi inək, camış, qoyun və keçi südü idi. Süddən müxtəlif növ ağartı məhsulları-qatıq, yağ, pendir, şor, qaymaq hazırlanıb, südlü yeməklər (südlü aş, südlü yarma, südlü əriştə, südlü sıyıq və s.) bişirilər, sulux, körəməz, ayran, qurut və s. düzəldilərdi. Bütün bunlar haqqında üçüncü yarımbaşlıqda geniş danışılmışdır.

Dördüncü yarımbaşlıqda mərasim yeməkləri tədqiq olunur. Burada Azərbaycan xalqının ayrılmaz hissəsi olan Gürcüstan azərbaycanlılarının qeyd etdikləri bayramlar (dini-Orucluq, Qurban; mövsümi-milli-Xıdır Əlləz, Novruz; məhsul-əkin, biçin) və bu bayramların, həmçinin yas və toy-nişan mərasiminin, ailə şənliklərinin hər birinin özünəməxsus çeşidli yeməklərlə səciyyələndiyi vurğulanır. Ət və xəmir xörəkləri çətin həzm olunduğu üçün, Orucluq günlərində iftar süfrəsinə daha çox süd və süd məhsulları (süd, südlü sıyıq, şor, qaymaq, yağ, pendir), müxtəlif tərkibli şirin çörəklər və bal, xurma qoyulardı. Qurban bayramında əsasən ət xörəkləri bişirilərdi. Bayramın qeyd edildiyi üç gün ərzində süfrəyə düzülən əsas bişmişlər bozbaş (küftə), ət bozartması və ya kartoflu, sulu ət yeməyi olurdu. Xıdır Əlləz, Novruz bayramları, yas, toy-nişan mərasimləri və ailə şənlikləri (uşağın doğulması, diş çıxarması, sünnət edilməsi, kirvə qonaqlığı və s.) də zəngin yemək süfrəsi ilə seçilərdi.

Ehtiyat ərzaq tədarükü barədə məlumat beşinci yarımbaşlıqda yer almışdır. Bu sahədə zəngin təcrübəyə malik əhali qış ehtiyatlarının qayğısına qalaraq ət və süd məhsullarından qovurma, qaxac, pendir (motal və cılğı pendiri), yağ, qurut hazırlamış, bostan-tərəvəz məhsullarından (pomidor, xiyar, kələm, bibər, sarımsaq, badımcan və s.) turşu qoymuş, yeməli yabanı bitkiləri (əvəlik, dağkeşnişi, kəklikotu, yarpız və s.) yığıb qurutmuş, bağ məhsullarından (ərik, gilas, gilənar, üzüm, qoz, zoğal, şaftalı, gavalı, tut və s.) mürəbbələr bişirmişlər.

Növbəti, yəni altıncı yarımbaşlıqda yemək öynəsinə diqqət çəkilir və burada bildirilir ki, əhali gündə üç dəfə (səhər-naştoyluq, günorta-nahar və axşam-şam) yemək yeyərdilər. Yeməyə səhər saat 8-9, günorta 1-2, axşam 7-8 və yaxud 8-9 radələrində otururlardı. Payız aylarının yeməyi ətli, qışınkı ətli və unlu (xəmirli), yazınkı isə əsasən bitki mənşəli yeməklər olurdu. Yayda ən çox istifadə edilən ağartı və bostan-tərəvəz məhsulları, nisbətən də ətli yeməklər idi. Əhalinin yemək öynəsində fərqlər də yox deyildir. Belə ki, mövsümdən asılı olmayaraq, kasıb və ortabab kəndlilərə nisbətən varlı ailələrin süfrəsində ətli yeməklər, eləcə də digər kalorili nemətlər bolluq təşkil etmişdir.

Yeddinci yarımbaşlıq içkilərə həsr olunubdur. Bu yarımbaşlıqda vurğulanır ki, öyrənilən əhalinin ən başlıca içkisi su olmuş və onlar yerləşdikləri ərazilərin təbii-coğrafi şəraitindən asılı olaraq çay, quyu, bulaq suları içmişlər. Ən çox işlədilən digər bir içki çay olmuşdur. Həzm prosesini yaxşılaşdıran, yorğunluğu aradan götürən, şəfaverici qüvvəyə malik çayın dəmlənməsi üçün çay bitkisinin yarpağından, eləcə də kəklikotu, yarpız, nanə, yemişan, itburnu və digər dağ çiçəklərindən istifadə edilmişdir. Tədqiqatdan bəlli olur ki, yay mövsümündə sərinləşdirici içki kimi ayran, atlama, körəməz, həmçinin müxtəlif çiçək və meyvələrdən hazırlanan şərbət-şirələr içilmişdir. Tədqiq etdiyimiz dövrdə olmasa da, sonralar digər içkilərdən (araq, çaxır, kofe, kakao, kvas, müxtəlif növ qazlı sular və s.) də istifadə edilmişdir.

Səkkizinci yarımbaşlıq məişət qablarına həsr olunmuşdur. Gürcüstan azərbaycanlıları ərzaq məhsullarının tədarükündə, saxlanılmasında, yeməklərin hazırlanmasında və süfrəyə verilməsində bir sıra məişət qablarından istifadə etmişlər. Hazırlanma materialına, həcminə, istifadə yerinə görə qablar (saxsı, ağac, mis, dəmir, hörmə, toxuma, şüşə və s.) müxtəlif idi. Tədqiqat göstərir ki, əhalinin məişətində saxsı qablar daha çox üstünlük təşkil etmişdir. Çünki, XIX-XX əsrin əvvəllərində Borçalıda onlarla saxsı-dulus qabları istehsal edən müəssisələr vardı. Hazırlanmış məhsullar elə yerindəcə-müəssisələrə yaxın kəndlərdə satılırdı. Bütün bu qabların etnoqrafik xüsusiyyətləri, işlənmə yeri, qaydası sözügedən yarımbaşlıqda çox aydın şəkildə şərh edilmişdir.

Xalq nəqliyyatı vasitələri barədə məlumat üçüncü fəslin beşinci bölməsində verilir. Burada Gürcüstan azərbaycanlılarının yaşadıqları ərazilərin təbii-coğrafi şəraitinə, yerin relyef quruluşuna, həmçinin onların sosial-iqtisadi və mədəni-texniki inkişaf səviyyəsinə uyğun olaraq istifadə etdikləri müxtəlif tipli nəqliyyat vasitələrinin (sadə, minik-yük, qoşqu və su) etnoqrafik şərhi verilir. Eləcə də, tədqiqata əsasən, əldə, kürəkdə, başda, çiyində yük daşımaqla, ən qədim nəqliyyat vasitəsi elə insanın özü olduğu, habelə atdan minik və qoşqu, öküz, kəl, dəvə və uzunqulaqdan minik-yük vasitəsi kimi istifadə edildiyi, insanların təsərrüfat məişətində əməli əhəmiyyət kəsb etməsi diqqət mərkəzinə gətirilir. Beşinci bölmənin birinci yarımbaşlığı "**Qoşqu nəqliyyatı**" barədədir. Tədqiq edilən bölgələrin təbii-coğrafi şəraiti, relyef quruluşu, əhalinin təsərrüfat məişətinin xarakteri ilə əlaqədar burada ənənəvi qoşqu nəqliyyatının təkərsiz (sürütmə) və təkərli növləri mövcud olmuşdur. Sürütmə, xizək dağlıq, dağətəyi və meşəətrafı kəndlərdə daha geniş yayılmışdır. Əsasən qış ayları, yağmurlu havalar üçün xarakterik olan bu təkərsiz nəqliyyat vasitələri öküz, kəl, uzunqulaq qoşulmaqla hərəkətə gətirilərdi.

Üçüncü fəslin beşinci bölməsinin ikinci yarımbaşlığı **"Təkərli və su nəqliyyatı"nın** etnoqrafik tədqiqinə həsr olunmuşdur. Burada bildirilir ki, təbii-coğrafi şərait və təsərrüfat yönümünə əsasən öyrənilən əhali arasında təkərli nəqliyyat vasitəsi kimi iki və dördtəkərli arabalardan istifadə edilmişdir. Dağətəyi və düzən ərazilərdə daha geniş yayılan ikitəkərli arabaların (öküz-kəl, at və uzunqulaq arabaları) üç forması və iki tipi vardı. Bu tiplərdən biri Azərbaycanın Qərb bölgəsində də məlum olan iri banlı, kiçik təkərli "qara araba", digəri isə etnoqrafik ədəbiyyatda da vurğulandığı kimi, kiçik çardaqlı, iri təkərli nəqliyyat vasitəsi idi. Bu arabaların hər iki tipi də öküzə qoşulurdu. Ənənəvi nəqliyyat vasitələrindən birini də ikitəkərli arabası təşkil edirdi. Öküz və ya kəl arabasından fərqli olaraq sözügedən nəqliyyat növü yığcam və yüngül idi. Xalq arasında "at daşqası" kimi ifadə olunan bu araba ilə əsasən ot, odun, çırpı, su, dən və s. daşınardı. Uzunqulaq arabasına gəlincə, bu nəqliyyat vasitəsi təkərlərinin kiçik diametrli və az yük tutumlu olması ilə at daşqasından fərqlənirdi. Əhalinin istifadəsindəki

dördtəkərli arabalar da ikitəkərli arabalar kimi qoşqu heyvanının müxtəlifliyinə görə öküz-kəl, at və uzunqulaq arabası olmaqla üç tipə bölünürdü. Dördtəkərli öküz arabasının dövr etibarı ilə ən qədim nümunəsi Gürcüstanda Trialeti arxeoloji qazıntısından əldə edilmişdir. Mütəxəssislər bu tipli arabaların Cənubi Qafqazda e.ə. II minilliyin ortalarından istifadədə olduğunu söyləyirlər. Azərbaycanda XX əsrin əvvəllərinə qədər işlədilən ağacdan hazırlanmış bütöv təkərli belə arabalar həmin ərəfədə Gürcüstanda da qalırdı. Etnoqrafik və ədəbiyyat materialları göstərir ki, dördtəkərli öküz-kəl arabası beş hissədən (arxa-ön təkərlər və zorağacı, paçalar, çardaq, dartıcı və boyunduruq) ibarət olmuşdur. At arabası da öz quruluşuna görə öküz arabasının təkrarı idi. Bunların arasındakı fərq yalnız onların ölçü və qollarındaydı. Belə ki, öküz arabasının qolları uc hissəsində birləşdirilib boyunduruğa bərkidildiyi halda, at arabasınınkı paralel şəkildə ortada qalırdı. Uzunluğu 2,5 m-ə çatan qollar arabanı dartaraq idarə edirdi. Dördtəkərli arabanın bir tipi də uzunqulaq arabasıydı. Bu araba forma və quruluşuna görə dördtəkərli at arabasının eyni olsa da, həcminin kiçikliyinə görə ondan seçilirdi. Adı çəkilən arabaların etnoqrafik şərhi ilə bərabər, bu yarımbaşlıqda yaylı nəqliyyat vasitələri (qazalaq, fayton və s.), həmçinin su nəqliyyatı (kolaz-qayıq) barədə də məlumat verilir.

Sözügedən fəslin üçüncü yarımbaşlığı yolların (quru yolu, su yolu, dəmir yolu) etnoqrafik tədqiqinə həsr olunmuşdur.

Üçüncü fəslin altıncı bölməsində **“Rabitə vasitələri”** araşdırmaya cəlb edilir. Tədqiqat göstərir ki, Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərdə rabitə xidməti dövrə uyğun şəkildə qurulmuşdu. Lap qədimdə insanların zəruri məlumatları lazımi yerə çatdırması üçün tonqal, məşəl, əl-qol hərəkəti, papaq yelləmə, fışqırıq və s. kimi vasitələrdən istifadə olunmuşdur. Öyrənilən bölgələrin əhalisi üçün XIX əsrin sonlarında ən mühüm rabitə vasitəsi “çapar” sayılmışdır. Lazımi məlumatlar ünvanına məhz bu çaparlar-atlılar vasitəsilə çatdırılırdı. Ümumiyyətlə, insanlardan rabitə vasitəsi kimi istifadə edilməsinin çox qədim tarixi vardır. Hələ uzaq keçmişdə insanlar ürək sözlərini bir-birinə “ismarıc” və ya “nişangöndərmə” yolu ilə ötürürdülər. Sonralar

insanlar yazıb-oxumağı öyrənmiş, rabitə və poçt şəbəkəsi meydana gəlmiş, bu sahədə təsəvvürlər xeyli genişlənmiş, məktublar, pul baratları, bağlama və digər əmanətlər göndərişi poçtla həyata keçirilmişdi. Xüsusilə 1920-ci ildən etibarən rabitə xidməti yüksək inkişaf səviyyəsi ilə səciyyələnmişdir. Artıq 1940-cı ildə Gürcüstanın istər azərbaycanlı, istərsə də gürcü kənd sovetliklərinin 79,7 % telefonlaşdırılmış, yeni teleqraf şəbəkələri yaradılmışdır.

Dissertasiyanın dördüncü fəsli **"Ailə məişəti"**nin etnoqrafik tədqiqinə həsr olunub. Fəslin birinci bölməsi **"Böyük ailə"** forması barədədir. Burada qeyd edilir ki, XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında qalıq şəklində olsa da, böyük ailə forması qorunub saxlanılmışdır. Böyük ailələrin tərkibinə qan qohumluğuna əsaslanan 3-4, bəzən də 5 nəslin nümayəndəsini özündə birləşdirən daha yaxın və doğma şəxslər daxil idi. Etnoqrafik materiallar göstərir ki, hər bir nəsil nümayəndəsinin öz adları olmuşdur, yəni birinci nəslə mənsub olan kişilər "atalar", ikincilər "oğullar", üçüncülər "nəvələr", dördüncülər "nəticələr", beşincilər "kötücələr", altıncılar "yadıcalar", yeddincilər "iticələr" adlanırdı. Qadın cinsi üzrə birinci qadınlar "analar", ikincilər "gəlinlər", üçüncülər "qız nəvələr", dördüncülər "qız nəticələr", beşincilər isə "qız kötücələr adını daşıyırdı. Böyük ailələr eyni məna və məzmun kəsb etsə də, fərqli terminlərlə ifadə olunurdu. Məsələn, Azərbaycanın müxtəlif bölgələrində "külfətli ailə", "ağır külfət", "böyük ailə", "güclü ailə" və s. kimi bəlli olan böyük ailələr tədqiq etdiyimiz bölgələrin əhalisi arasında "böyük külfət", "birlikli ev", "çoxluq ev", "bir qoşun külfət" və s. şəklində təcəssüm tapmışdır. Böyük ailələrdə ailə başçısına məxsus müxtəlif müraciət formaları da vardı: "böyük lələ", "qoca dədə", "evin qocası", "evin atası", "evin başbiləni" və s. Böyük ailələrin təsərrüfat işlərini, həmçinin kişilər arasında əmək bölgüsünü tənzimləyən "evin atası", qadınlar arasında isə evin yaşlı qadını-"ağbirçəyi" idi. Bu tipli ailələrin qorunub saxlanılmasının bir sıra səbəbləri vardı. Bu haqda birinci yarımbaşlıqda çox əhatəli danışılmışdır. XIX əsrin axırlarında Gürcüstan azərbaycanlılarının böyük ailələrində üzvlərin sayı 30-40, XX əsrin əvvəllərində isə 20-25 nəfərə çatırdı.

**"Kiçik ailə"** forması adlı başlıq ikinci bölmədə yer almışdır. XIX-XX əsrin əvvəllərində qalıq halında mövcudluğuna baxmayaraq, tədqiq olunan bölgələrin əhalisi arasında ailənin əsas formasını kiçik ailə təşkil edirdi. Patriarxal ailələrdən fərqli olaraq, ata-ana və onların uşaqları kiçik ailə sayılırdı. Etnoqrafik ədəbiyyatda da vurğulandığı kimi, kiçik ailələrin özü də mürəkkəb və sadə olmaqla iki yerə bölünürdü. Əgər ailədə üç və daha çox nəsil (məsələn, baba-nənə, ata-ana, uşaqlar və nəvələr) yaşayırdısa, belə ailə mürəkkəb adlanırdı. Ailədə bir (ər-arvad) və iki (ata-ana və uşaqlar, ana və uşaqlar, ata və uşaqlar) nəsil yaşayırdısa, onda belə ailə (nuklear) ailəyə aid idi. Böyük ailələrdə olduğu kimi, kiçik ailələrdə də evin başbiləni, ağsaqqalı, sözü qeyd-şərtsiz yerinə yetirilən ən hörmətli sakini ata, həmçinin ana-ağbirçək idi. Hər iki şəxs övladlar üçün ən dəyərli varlıq sayılırdı. Kiçik ailələrdə də əmək bölgüsü böyük ailələrdə olduğu kimi idi. Burada da fiziki və çöl-təsərrüfat işlərini kişilər, evdarlıqla bağlı məsələləri isə qadın, qız və gəlinlər həyata keçirərdi. Onu da deyək ki, iqtisadi durumu babat olmayan ailələrdə orta yaşlı qadınlar kişilərlə bərabər çöl-təsərrüfat işlərində çalışırdılar. Gürcüstan azərbaycanlıları arasında qoyunçuluq və tərəvəzçilikdə qadın əməyindən geniş istifadə edilirdi. Bununla belə, qadın vaxt tapıb uşaqlarının tərbiyəsi ilə də məşğul olurdu. İkinci yarımbaşlıqda bütün bu məsələlərin ernoqrafik səciyyəsi araşdırılmışdır.

Fəslin üçüncü bölməsində **"Nikah"**ın formaları (təkkəbinlilik-monoqam və ikiarvadlılıq-poliqam), qaydaları (ekzoqam-yad, qohum olmayan və endoqam-qohum), adətləri (göbəkkəsmə (beşikkərtmə), levirat-əri ölmüş qadının öz qaynı ilə evlənməsi, sororat-arvadının ölümündən sonra kişinin subay baldızına evlənməsi və kuzen-qohumla evlənmə), və üsulları (qızqaçırma və elçilik yolu ilə) barədə etnoqrafik araşdırmalar əksini tapmış və nikahla bağlı məsələlərin (o cümlədən "qız-qıza", "əvəz-əvəz" nikah adətinin) hər biri haqqında çox geniş məlumat verilmişdir.

Zənginliyi, icra qaydaları ilə ənənəviliyini bu gün də saxlayan **"Nişan"** mərasimi barədə məlumat dördüncü bölmədədir. Nişan mərasimi özlüyündə "qız seçmə" və "elçilik" mərhələsindən keçirdi. Qız seçilib, elçilik edildikdən və onun "hə"si alındıqdan

sonra, ağsaqqalların iştirakı ilə nişan mərasimi olurdu. Hər iki tərəfdən 30-35 nəfər iştirak edən bu mərasimdə qıza nişan üzüyü, qol-boyun, bel bəzəkləri, donluq parçalar, kəlağayı və şirniyyatla dolu xonçalar gətirilərdi. Xalqın inamına görə, "ayaqqabı", "çəkmə" darlıq nişanəsi olduğundan, ona ayaq geyimləri aparılmazdı.

**"Toy"** mərasimi ilə bağlı aparılan etnoqrafik tədqiqat beşinci bölmədə yer alır. Toy bineyi-qədimdən xalqımız arasında xoş əhval-ruhiyyə yaradan, insanları daxilən saflaşdıran, zahirən gözəlləşdirən, təzələyən bir mərasim olmuş və bu gün də olmaqdadı. Toy nəinki iki gəncin bir-birinə qovuşması, vüsala yetişməsi, ailə-ocaq qurması şənliyidi, həm də "digər ictimai hadisələrdən zənginliyi ilə fərqlənən" dolğun məzmunlu, eşq, məhəbbət, səadət mənalı mərasimdir. Tədqiq etdiyimiz bölgələrin əhalisi toyu əsasən payızda edərdilər. Bu həm payızda əkin sahələrindən, bağ-bağatdan məhsulun yığılıb qurtarması, həm də maldarlıq-qoyunçuluqla məşğul olan əhalinin yaylaqdan ev-eşiklərinə yığışması ilə əlaqədar idi. Yaşlı adamların dediyinə görə, bəzən toyu yaylaqda edən ailələr də olurdu. Bu bölmədə oğlan və qıza "sağdış-soldış" seçilməsi, "paltarbiçdi" və "xınayaxdı" mərasimi, "qız şaxı" və "oğlan şaxı"nın çıxarılması, saz məclisi, mağar toyunun icrası, qızın (gəlinin) oğlan evinə köçürülməsi və s. barədə etnoqrafik araşdırmalar cəmlənmişdir.

Növbəti bölmə **"Uşaqların tərbiyəsi"** adlanır. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişətində ən mühüm yerlərdən birini uşaqların tərbiyəsi məsələsi tuturdu. Təsadüfi deyil ki, uşaqların sabahı, gələcəyi ailədə aldıqları tərbiyədən asılıdır. Çünki, ailə uşağın əqli, mənəvi və fiziki inkişafının əsası qoyulan yerdir. Uşaqların bilik, bacarıq və əsaslı vərdişlərə, nəcib sifətlərə, eləcə də etik qaydalara yiyələnməsi məhz ailə tərbiyəsindən başlanır. Deməli, uşaqların bir şəxsiyyət kimi formalaşmasında, onların cəmiyyət üçün gərəkli insan-vətəndaş olaraq yetişməsində cavabdehlik yükü də qeyd-şərtsiz ailənin üzərinə düşürdü. Tədqiq olunan bölgələrin əhalisi arasında uşaqların hərtərəfli inkişafını, mənəvi bütövlük və zənginliyini təmin etmək üçün onun əxlaq, əmək, fiziki, əqli və estetik tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Valideynlər uşağa təmkinli olmağı, özlərindən

böyüklərə hörmət etməyi, doğru danışmağı, xəbərçilik etməməyi, günah iş tutmamağı təlqin edər, onlarda pis adət və bəd əməllərə qarşı nifrət hissi oyadardılar.

Bu fəsildə sonuncu bölmə **“Dəfn”dir**. Məlum olduğu kimi, ailə məişətinin ən vacib və məsuliyyətli məsələlərindən birini dəfn və yasla bağlı mərasimlər, adət-ənənələr təşkil edir. Etnoqrafik araşdırmamız göstərir ki, tədqiq etdiyimiz bölgələrin kəndlərində hər hansı bir ailədə sağalacağına ümid olmayan xəstə vardısa, həmin evdə hazırlıq işləri görülər, həyət-baca sahmana salınar, xəstənin əl və ayaq dırnaqları tutular, çimizdirilər, alt paltarları dəyişilər və yataq dəstlərinin (yorğan-döşəyinin, balışının) üzü təzələnərdi. Xəstə candan olduqdan sonra onu “rahatlayar”, “ağı” və ya “dil” deyib ağlaşar, islam dininin qaydalarına uyğun dəfn edərdilər. Mərhum cavan olardısa, onun cənazəsinin önündə ağı deyib, oynamaq adəti də mövcud idi. Ölənin üç, yeddi, qırx və ilində ehsan verilər, onun kişi qohumları yaslı olduqlarına işarə kimi qırx gün saç və saqqallarını qırxmazdılar. Tədqiqatdan məlum olur ki, Gürcüstan azərbaycanlılarının dəfn və yasla bağlı adətləri Azərbaycanda, eləcə də digər türk xalqlarındakı kimi, islam dininin qayda-qanunlarını özündə ehtiva etsə də, islamaqədərki bəzi inam, etiqad və düşüncə tərzini qoruyub saxlamışdır.

Beşinci fəsil **Mənəvi mədəniyyət və ictimai məişət”**in etnoqrafik tədqiqinə istiqamətlidi. Fəslin birinci bölməsi **“Xalq yaradıcılığı”** adlanır. Xalqımızın mənəvi qüdrətini, sosial-siyasi, ictimai və tarixi hadisələrə baxışını özündə əks etdirən bu tükənməz söz sərvəti xalq içərisindən çıxmış yaradıcı adamların əməyinin məhsuludur. Qədim tarixə malik bu söz sərvəti vasitəsilə xalqımızın keçmiş həyat tərzini, adət-ənənəsini, dünyabaxışını öyrənirik. Deməli, bir xalqın tarixini, taleyini, keçib gəldiyi yolu öyrənmək üçün ən əvvəl onun folklorunu dərindən bilmək gərəkdir. Xalqımızın yaratdığı folklor nümunələri (aşıq və musiqi sənəti, layla, bayatı, nağıl, əfsanə, dastan, atalar sözü və zərb məsəl, deyim, sınama, yozma, and, tapmaca, gülməcə və s.) nəsildən-nəslə ötürülərək bu günümüzə qədər gəlib çatmışdır. Aydındır ki, hər bir xalq özünəməxsus şifahi söz sənəti mədəniyyətinə malik olur. Gürcüstan azərbaycanlılarının da şifahi xalq yaradıcılığı

nümunələrində onların spesifik xüsusiyyətlərə malik həyat və məişəti, adət-ənənəsi, dünyagörüşü, dosta isti münasibəti, düşmənə qarşı kəskin mübarizəsi, vətənə, el-obaya məhəbbəti öz əksini tapmışdır.

İkinci bölmə **“El sinədəftərləri”**nin şeir yaradıcılığına həsr olunmuşdur. Burada Güllər Pərisinin (1790-1925), Miskinoğlu Allahverdinin (1845-1960), Tateroğlu Həsənin (1900-19980, Molla İslamın (1909-1997), Əslioğlu Məhəmmədin (1911-1982), Rəşid Hacallının (1914-1995), Qulammirzə Musayevin (1918-2004), Təhlə Lətif Həsənovun (1926-2009), Əli Çömbərli-Qarasanlının (1927-2000), Şair Əsəd Usuboğlunun (1927-1993), Həsən Sadıqlının (1928-2007) və Əsəd Məmmədlinin (1929-2019) qoşqularının geniş şəkildə etnoqrafik şərhi verilmişdir.

Tədqiq olunan əhalinin **“Qonaqpərvərlik”** ənənələri beşinci fəsilin üçüncü bölməsində yer alır. Ailə məişətimizdə mühüm rol oynayan qonaqpərvərlik adəti az və ya çox dərəcədə, demək olar ki, bütün dünya xalqlarına məxsus ali keyfiyyətdir. Ancaq bu ali keyfiyyət azərbaycanlılar, o cümlədən qafqazın digər xalqları arasında daha geniş yayılmışdır. Bunu ölkəmizdə olmuş bir çox xarici alim və səyyahların xalqımızın qonaqpərvərliyi barədə söylədiyi fikirlər də təsdiq edir. Tədqiq olunan bölgələrin əhalisi evlərdə qonaq üçün xüsusi otaq, yorğan-döşək dəstləri ayırar, döşəməyə kilim-palaz salar, divardan xalçalar asardılar. Səliqə-səhmanıyla göz oxşayan bu otaq qonaq gələndə onun ixtiyarına verilərdi. Adi vaxtlarda isə, qonaq otağı yalnız silib-süpürmək üçün açılardı. Adətə görə, qonağı ailənin başçısı-ağsaqqalı qarşılayardı. O, evdə olmazdısa, bu şərəfli iş ailənin böyük oğlunun və yaxud da evin yaşlı qadınının-ağbirçəyinin üzərinə düşərdi. Qonağın şərəfinə qoç, toğlu və ya quzu kəsilər, onun nə üçün gəldiyi soruşulmazdı. Qonağı qohum-qonşular da evlərinə dəvət edib, onun şərəfinə qonaqlıq məclisi qurardılar. Qonaq evinə qayıdarkən istəyərkən çox təmtəraqla yola salınardı.

Beşinci fəslin dördüncü bölməsi **“Qonşuluq”**-dur. Sözügedən bölmədə vurğulanır ki, qonşuluq münasibətləri həyatın bütün sferalarında- ev tikintisində, toy-yas və bayram mərasimlərində, əkinçilik-maldarlıq təsərrüfatlarında özünü daha çox büruzə verirdi.

Məlumatlara əsasən bildirilir ki, qonşuda müəyyən bədbəxt hadisə baş verərkən qohumlardan daha tez qonşular özlərini yetirərdilər.

Beşinci bölmə **“Xalq müalicə üsulları”**nın etnoqrafik tədqiqidir. Burada qeyd edilir ki, Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyətinin ən qədim və mühüm sahələrindən biri xalq təbabətidir. Xalq təbabəti dedikdə, xalqın minilliklər boyu həyat təcrübəsi, müşahidəsi, sınağı və min yol ölçüb-biçməsi sayəsində qazandığı empirik biliklər vasitəsilə müxtəlif xəstəlikləri müalicə etmək üsulları başa düşülür. Yarımbaşlıqda vurğulanır ki, xalq təbabəti heyvanat aləmi, dərman bitkiləri, otları, çiçəkləri, müalicə suları ilə zəngin olan ərazilərdə daha yüksək səviyyəsi ilə səciyyələnir. Bu baxımdan öyrənilən əhalinin yaşadığı bölgələr xüsusilə diqqət çəkəndir. Buranın əsrarəngiz təbiəti, təbii nemətlərlə zənginliyi hər cür xəstəliyin şəfa mənbəyi olaraq, bir növ “əczaxana” funksiyasını yerinə yetirmişdir. Gürcüstan azərbaycanlıları məhz bu əczaxanadan faydalanaraq düçar olduqları xəstəlikləri özləri müalicə etmiş, min bir dərdin dəvasını, məlhəmini elə burada-təbiətin qoynunda tapmışdır. Topladığı təcrübə, yiyələndiyi vərdiş və qazandığı empirik biliklə xəstəliyi daha yaxşı müalicə etmək bacarığına malik olanlar isə xalq arasında tanınaraq “təbib”, “loğman”, “ara həkimi” kimi adlar qazanmışlar.

Qədim zamanlardan XIX-XX əsrin əvvəllərinə gəlib çıxan xalq müalicə üsulunda tədqiq olunan bölgələrin əhalisi kəkotu, yarpız, nanə, ispanaq, əvəlik, yemişan, çobanyastığı, cincilimotu, gicitikan bitkilərindən, dağ-çəmən otlarından, meyvə və giləmeyvələrdən, habelə mineral sulardan istifadə etmişlər. Məsələn, qarın nahiyəsindəki ağrıları kəsmək üçün cincilimotunu, ürək ağrılarının ötüb keçməsində isə üzərrik otunu qaynadır və çay kimi dəmləyib içirdilər. Bütün bunlar, yəni müxtəlif xəstəliklərin müalicəsi barədə yarımbaşlıqda çox geniş danışılmışdır.

Altıncı bölmə **“Ağsaqqallıq, ağbirçəklik”** adlanır. Burada Gürcüstan azərbaycanlıları arasında qocalara, ağsaqqallara həmişə böyük hörmət olunduğu və bu ibrətamiz ənənəvi keyfiyyətin öz dəyərini, sambalını günümüzədək qoruyub saxladığı açıqlanır. Yarımbaşlıqda qeyd olunur ki, ağsaqqallıq yaşla ölçülməmişdir. Saçının, saqqalının ağlığından, qaralığından asılı olmayaraq, o,

oturuşu, duruşu, məsləhəti, hərəkət və əməli ilə digərilərindən seçilmişdir. Ona görə də el-obanın dar gündə dayağı, yol göstərəni, xeyir-şərində başbiləni, güvənc yeri olan ağsaqqala hörmət etmək, onun şərəf və ləyaqətini qorumaq insanda qürur yaratmış, məğrurluq hissi oyatmışdı. Yaşlı adamların dediyinə görə, müxtəlif məramlı məclis və ya mərasimlərdə ağsaqqallar başda, ən görünüşlü yerdə əyləşərdilər. Onlar olan məclisdə sakitlik hökm sürər, böyük-kiçik yeri bilinər, xalq ağzı ilə desək, "qulaq Quran səsi" eşidərdi. Ağsaqqalın sözü, kəlamı dinlənilər, dediyinə qeyd-şərtsiz əməl olunardı.

El ağsaqqalı adını almaq hər kişiyə, saqqalı ağarmışa nəsib olmadığı kimi, ağbirçək adını almaq, daşımaq da hər qadının qisməti deyildi. Yaşlı adamlardan aldığımız bilgiyə görə, ağbirçəkliyə gedən yol ailədən başlayırdı. Ailəsinin bütün ağırlığının, çətinliyinin öhdəsindən gələn, qeyrətli, namuslu, elcanlı övlad böyüdən, qonum-qonşu qadınlarına hər cəhətdə görk və dayaq olan, nəcibliyi, insanpərvərliyi, geniş ürəyi, səliqə-sahmanı diqqət çəkən qadınlar tədricən el anasına-ağbirçəyinə çevrilir, əhali arasında hörmət-izzətlə qarşılanırdılar.

**"Andiçmə"** barədə yeddinci bölmədə məlumat verilir. Burada bir sıra məfhumlarla (od, su, torpaq, yer-göy, dağ-daş, günəş, gecə və s.), habelə, İslam dinini təcəssüm etdirən müqəddəsliklərlə (Allah, Peyğəmbər, İmam, Qurani-Kərim, Pir-ocaq) bağlı andların etnoqrafik tədqiqi aparılmışdır.

Etnoqrafik tədqiqatın **"Yuxuyozma"**ya aid olan hissəsi səkkiziinci bölmədə yer alır. Burada yuxu və yuxuyozmanın əhəmiyyəti, öyrənilən əhalinin həyat və düşüncəsindəki yeri, rolu, mahiyyəti açıqlanır.

Növbəti başlıq **"Deyimlər-müdrik kəlamlar"** adlanır. Doqquzuncu bölmədə yerləşən bu hissədə qeyd olunur ki, tədqiq edilən bölgələrin əhalisi arasında geniş yayılan deyim-kəlamları yaradanlar həyatın bütün sahələrinə bələdliyi ilə seçilən və dərin müşahidə qabiliyyətinə, hadisələri sınaqdan keçirmə bacarığına malik insanlar olmuşlar. Tədqiqatçıların da yazdığı kimi, ulu babalarımız bütün dövrlərdə yaşayış tərzləri, inam-etiqadları, hünər-

qeyrətləri, alp-ərlikləri, yadelli yağılara qənim kəsilmələri, dostluğa həlim-həzinlikləri haqqında müdrik kəlamlardan istifadə etmişlər.

Fəslin sonuncu-onuncu bölməsi **"El sınaqları"** haqqındadır. Ağız ədəbiyyatının qədim janrlarından olan el sınaqları, mütəxəssislərin vurğuladığı kimi, hər şeydən əvvəl, xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini sistemli şəkildə izləmək baxımından mühüm əhəmiyyət kəsb edir. Haqqında danışılan el xəzinəsi insanların min yol ölçüb-biçməsi, müşahidə və təcrübəsi nəticəsində qətiləşən, özünü doğruldan zəngin söz yatırıdır. Bu bölmədə məişətlə, bədən üzvləri ilə, heyvan və quşlarla, geyimlərlə, güzgü ilə və s. bağlı el sınaqlarının etnoqrafik tədqiqi aparılmışdır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurulur və göstərilir ki, öyrəndiyimiz bölgədə yaşayan azərbaycanlılar ta qədimdən Gürcüstanda məskunlaşmış türk tayfalarının birbaşa törəmələri, varisləridir və əvvəllərdə olduğu kimi, XIX-XX əsrin başlanğıcında da onların iqtisadi həyatında əkinçilik mühüm əhəmiyyət kəsb etmiş, tədqiq olunan dövrdə Borçalı düzənliyində yetişdirilən ağ və sarı buğda keyfiyyətinə görə Cənubi Qafqazda birinci yeri tutmuşdur. Tədqiqat onu da göstərmişdir ki, bölgədə "xanlıq", "sarısaçaq", "çaqqalboğan", "qorel", "girkəni", "lək", "saabi", "Borçalı" və s. kimi üzüm sortları yetişdirilmişdir.

Gürcüstan azərbaycanlılarının yaşadıqları bölgələrin mülayim iqlimi, zəngin və keyfiyyətli bitki örtüyü, burada maldarlığın, xüsusilə də qoyunçuluğun inkişafını şərtləndirmişdir. Qarayazı, Borçalı, Bolus, Başkeçiddə, habelə, azərbaycanlılar-türklər yaşayan Saqareco, Laqodex, Telav, Kaspi və Msxet yörələrində əsasən "Tərəkəmə", "Bozax", "Qarabağ", "Tuş", "Merinos" və s. kimi qoyun cinsləri saxlanılmışdır.

Öyrəndiyimiz bölgələrin xammal ehtiyatı ilə zənginliyi burada müxtəlif sənət sahələrinin yaranmasına və inkişafına zəmin yaratmışdır. Təsadüfi deyil ki, XIX-XX əsrin əvvəllərində azərbaycanlılar yaşayan kənd və şəhərlərdə "daşişləmə", "ağacişləmə", "dəmirçilik", "dabbağlıq", "toxuculuq", "tikmə",

“papaqçılıq”, “keçəçilik” və s. kimi sənət növləri üzrə ixtisaslaşmış yerli sənətkarlar fəaliyyət göstərmişlər.

Hər bir xalq özünün yaratmış olduğu maddi mədəniyyət ünsürləri (xalq yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, yeməklər və içkilər, xalq nəqliyyatı vasitələri və rabitə, təsərrüfat və məişət əşyaları və s.) ilə tanınır, seçilir və tarixin yaddaşında qazanmaq hüququ qazanır.

Araşdırma göstərir ki, qələmə alınan dövrdə Gürcüstan azərbaycanlılarının xalq yaşayış məskənləri müvəqqəti (oba, şenlik, binə, qışlaq, yaylaq və s.) və daimi (kənd, şəhər) səciyyə daşıyırdı. Və bu yaşayış məskənlərinin ən geniş yayılmış tipi kənd olmuşdur. Kəndlər qohumluq prinsipinə uyğun olaraq patronomik qruplardan (tayfa, nəsil) formalaşmışdır. Təqiqatın detalları göstərir ki, cüzi fərqlər nəzərə alınmazsa, istər plan quruluşu, istərsə tikilmə qaydası baxımından Gürcüstan azərbaycanlılarının yaşayış evləri Azərbaycan, eləcə də gürcü evləri ilə oxşarlıq, hətta eyniyyət təşkil edir.

Tarixi-etnoqrafik materiallar göstərir ki, maddi mədəniyyətin mühüm sahəsi kimi geyimlər qadın, kişi və uşaq geyimləri olmaqla üç tipə ayrılırdı. Və bu geyimlər toy, yas, bayram və gündəlik istifadə edilən paltarlardan ibarət olub, bir-birindən fərqlənirdi. Geyimlər yerli xüsusiyyət kəsb etməklə bərabər, həm də Azərbaycan, Türk və Qafqaz (məs: arxalıq, çuxa, kürk, yapıncı və s.) səciyyəsi daşımışdır.

Maddi mədəniyyətin ən mühafizəkar sahələrindən biri yeməklər və içkilərdir. Araşdırmadan aydın olur ki, “bozbaş”, “basdırma”, “buğlama”, “qovurma”, “küftə”, “dolma”, “cığırtma”, “sümüklü şorba”, “şərbət”, “bəhməz”, “dovğa” və s. kimi Azərbaycan yeməkləri və içkiləri gürcülərin, “çaxoxbili”, “ağ lavaş”, “saçebeli”, “xarço”, “xatsapuri”, “djidjaka”, “adjika”, “lobibxaliya”, “badirjanxali” və s. kimi gürcü yeməkləri isə azərbaycanlıların mətbəxinə əlavə edilmişdir.

Tədqiqatdan bəlli olur ki, öyrəndiyimiz əhalinin ailə məişətinin gürcü və Gürcüstanda məskunlaşan müxtəlif etnik qrupların ailə məişəti ilə bağlı adətlərində, qaydalarında (məs:

böyüyə, kiçiyə, ağsaqqal-ağbirçəyə münasibətdə, namus məsələsində və s.) oxşarlıqlar, hətta eyniliklər də yox deyildir.

Gürcüstan azərbaycanlıları Azərbaycan xalqının tərkib hissəsi olaraq zəngin mənəvi mədəniyyət yaratmışlar.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU MÜƏLLİFİN AŞAĞIDAKI ƏSƏRLƏRİNDƏ ÖZ ƏKSİNİ TAPMIŞDIR:


1. Haqqın gözü tərəzidir (etnoqrafik düşüncələr)... − Bakı: Azərnəşr, − 2006. − 60 s.
2. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat). − Bakı: Elm və təhsil, − 2012. − 156 s.
3. Təhlənin tarixinə, etnoqrafiyasına qısa bir baxış // Təhlədənəm özüm, dağlar... (Təhlə çökəyi ədəbi antologiyası). − Bakı: Qanun, − 2012. − s. 9- 32.
4. Gürcüstan azərbaycanlılarının etnoqrafiyası (XIX-XX əsrin əvvəlləri: təsərrüfat məişəti və maddi mədəniyyəti). −Bakı: AVROPA, − 2019. − 216 s.
5. Gürcüstan azərbaycanlılarının nişan və toy mərasimi (XIX-XX yüzilliyin əvvəlləri) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, − Bakı: Nafta- Press, − 2006. II, − s. 179 - 188
6. Gürcüstan azərbaycanlılarının say tərkibi haqqında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, − Bakı: Nafta-Press, − 2006. I, − s. 229-235.
7. Gürcüstan azərbaycanlılarının böyük ailələri haqqında (XIX-XX əsrin əvvəlləri) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, − Bakı: Nafta-Press, − 2007. 2, − s. 212-216.
8. Gürcüstan azərbaycanlıları arasında əkinçilik təsərrüfatı haqqında // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları (A.A.Abbasovun anadan olmasının 70 illiyinə həsr olunmuş elmi sessiyanın materialları). − Bakı: Nafta-Press, − 2007. − s. 196-197.

9. XIX-XX əsrin əvvəllərində azərbaycanlıların bitki mənşəli yeməkləri (Gürcüstan azərbaycanlılarının etnoqrafik materialları əsasında) // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, − Bakı: Elm, − 2008. №9, − s. 93-106.
10. XIX-XX əsrin əvvəllərində bayram, mərasim yeməkləri, içkiləri və məişət qabları haqqında (Gürcüstan azərbaycanlılarının etnoqrafik materialları əsasında) // Milli Azərbaycan Tarixi Muzeyi. − Bakı: Elm, − 2008. − s. 389-396.
11. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında kiçik ailə forması // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, − Bakı: Nafta-Press, − 2009. 2, − s. 193-198.
12. XIX-XX əsrin əvvəllərində azərbaycanlıların ət və süd mənşəli yeməkləri (Gürcüstan azərbaycanlılarının etnoqrafik materialları əsasında) // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, − Bakı: Elm, − 2009. №11, −s. 63-75.
13. Gürcüstan azərbaycanlıları arasında körpə uşaqlarla bağlı mərasimlər // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, − Bakı: Bakı Universiteti, − 2010. №4, − s.113-118.
14. XIX əsrin sonu-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının xalq yaşayış məskənləri haqqında // AMEA-nın Məruzələri. − Bakı: Elm, − 2010. C. LXVI, №5, − s. 145-152.
15. Borçalı əhalisinin xalq təbabətindən (XIX-XX əsrin əvvəlləri) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. - Bakı: Nafta-Press,- 2014, №1,- s. 188-194.
16. Borçalı əhalisinin xalq təqvimi // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, − Bakı:Elm, − 2014. №1, − s. 151-157.
17. Краткий обзор истории, этнографии и фольклора азербайджанского племени текле в Республике Грузии // Народна творчесть та этнология, №1 (сичень-лютий). Национальна Академия Наук Украини, − 2014. − с. 82-86.

18. Gürcüstan azərbaycanlıları arasında maarifin inkişafına dair (XIX əsrin sonu-XX əsrin əvvəlləri) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, − Bakı: Elm, − 2015. №1, − s. 87-93.
19. Gürcüstan azərbaycanlıları arasında xalq nəqliyyat vasitələri (XIX əsrin sonu-XX əsrin əvvəlləri) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, − Bakı: Elm, − 2015. №2, − s. 171-178.
20. Gürcüstan azərbaycanlıları yaşayan bölgələrin əlaqə vasitələri (yollar) haqqında (XIX əsrin sonu-XX əsrin əvvəlləri) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, − Bakı: "Bakı Universiteti" Nəşriyyatı, − 2015. №4, − s. 86-91.
21. Gürcüstan azərbaycanlıları arasında qonşuluq münasibətləri (XIX-XX əsrin əvvəlləri) // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın MATERİALLARI. 2 hissədə. I hissə. 5-7 may 2015. − Bakı: BSU, − 2015. − s. 311-314.
22. Xalq bayatıları etnoqrafik mənbə kimi (2014-cü il etnoqrafik səfər zamanı Qazax-Ağstafa bölgəsindən topladığımız materiallar əsasında) // Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş Elmi sessiyanın Materialları. − Bakı, 24 avqust 2015. − s. 146-149.
23. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının qadın geyimləri // Sivilizasiya, − Bakı: Bakı Avrasiya Universiteti, − 2016. №1, − s. 167-175.
24. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının kişi geyimləri // Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, -Bakı , 2016. - s. 128-133.
25. Gürcüstan azərbaycanlıları arasında əkinçilik təsərrüfatı haqqında (XIX-XX əsrin əvvəlləri) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, − Bakı: Elm, − 2017. №1, − s. 75-82.

26. Gürcüstan azərbaycanlılarının təsərrüfat məişətinin bəzi sahələri haqqında (XIX-XX əsrin əvvəlləri) // Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, - Bakı, -2017. № 4,- s. 45-50.
27. Исследование этнографических особенностей грузинских азербайджанцев на основе творчества народных поэтов // Гілея. Науковий вісник. Випуск 137 (10). − Киів − 2018. − с.126-131.
28. Gürcüstan azərbaycanlıları arasında ev tikintisi ilə bağlı bəzi xalq adətləri // "Azərbaycanda Arxeoloji və etnoqrafik araşdırmalar". AMEA-nın həqiqi üzvü Teymur Əmirasalan oğlu Bünyadovun anadan olmasının 90 illiyinə həsr olunmuş Elmi Sessiyanın Materialları. − Bakı, 07 fefral 2018-ci il. − s. 103-104.
29. Gürcüstan azərbaycanlılarının deyimləri-müdrik kəlamları barədə // Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları" mövzusunda Elmi Sessiyanın Materialları. − Bakı, 12 iyun 2019-cu il. − s. 93-95.
30. Gürcüstan azərbaycanlıları arasında din və dini etiqadlar (XIX-XX əsrin əvvəlləri) // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, − Bakı, 2018. №3, - s. 115-120.
31. Отношение к снам и толкованию сновидений среди азербайджанцев Грузии // Зборник наукових праць «Велес». V Межнародна конференция «Наука в епоху дисблансив». − Киев − 2019. − с. 6-12.
32. Народные приметы и их сущность у азербайджанцев Грузии (конец XIX- начала XX веков) // Social sciences History: Modernity the future, eu experience. İnternational scientific and practical conference. December 27-28. − Wloclawek, Republic of Poland – 2019. − s. 58-63.
33. Клятвы, употребляющиеся в лексиконе азербайджанцев Грузии // Modern views in science. Proceedings of XXXXIII İnternational scientific conference. − New York September 17, 2019. − s. 13-17.

34. Мудрые изречения, пословицы и роговорки в лексиконе азербайджанцев Грузии (в конце XIX- начале XX веков) // Гілея. Науковий вісник. Випуск 153 (2). − Київ – 2020. − с. 7-11.
35. Методы и подходы к воспитанию детей азербайджанцами Грузии в конце XIX- начале XX в. // «Вопросы Истории» 8 (1). − Москва, − 2021. − с. 183-200.
36. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında kirvə qohumluğunun etnoqrafik xüsusiyyətləri // Davamlı inkişaf strategiyası: Qlobal trendlər, milli təcrübələr və yeni hədəflər. I Beynəlxalq elmi konfransının materialları. 2 hissədə. 1-ci hissə. 10-11 dekabr 2021-ci il, - Mingəçevir: Azərbaycan Respublikasının Təhsil Nazirliyi Mingəçevir Dövlət Universiteti, -s. 128-130.
37. Hikmətli sözlərin etnoqrafik xüsusiyyətləri və tərbiyəvi əhəmiyyəti (Gürcüstan azərbaycanlılarının materialları əsasında) // Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: Reallıqlar və çağırışlar. Beynəlxalq elmi konfransın materialları. I cild. 16-17 dekabr 2022-ci il, - Mingəçevir: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Mingəçevir Dövlət Universiteti, - s. 120-128.
38. Gürcüstan azərbaycanlıları arasında aşıq sənəti // 17. Uluslararası Türk Sanatı, Tarihi ve Folkloru Kongresi / Sanat Etkinlikleri (Akademik Naile Velihanlı armağanı). 05-07 Eylül (September) 2023 Bakü-Azerbaycan, - s.171-174.
39. Отношение к мужчинам и женщинам старшего поколения у азербайджанцев Грузии // Mədeni müra (Культурное наследие. Научный журнал), - Kazaxstan, 2023. №4 (103), - s.47-57.

Dissertasiyanın müdafiəsi ____ ____________ 2024-cü il tarixində saat _______ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ __________ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2024.

Kağızın formatı:A5

Həcm: 77935

Tiraj: 100